Günəş Şərqdən doğur!

№ 198 (5719), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

www.sherg.az 29 oktyabr 2022-ci il (şənbə)



## "Bakıda velosipedlərin hərəkəti üçün şərait yoxdur"

Nazir müavini: "Qanunvericiliyə dəyişiklik üçün layihə hazırlamışıq"

**"Təəssüf ki, biz hələ də velosipedlərə əyləncə vasitəsi kimi baxırıq, nəqliyyat vasitələrindən biri kimi baxmırıq".**

**Bunu rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rəhman Hümmətov deyib. Onun sözlərinə görə, Bakıda velosipedlərin hərəkəti üçün də şərait yoxdur.**

(Səh.9)




## "Biz torpaqlarımızın bir qarışını da verməyəcəyik"

Əli Əsədov Qriqoryanın əsassız ittihamlarına sərt cavab verdi

**Müstəqil Dövlətlər Birliyi Hökumət Başçıları Şurasının Astanada keçirilən iclasında Azərbaycanın Baş naziri Əli Əsədov Birinci Qarabağ müharibəsinin gedişində Ermənistanın törətdiyi cinayətlərə diqqəti cəlb edib.**

Baş nazir deyib ki, Birinci Qarabağ müharibəsində erməni hərbi qulluqçular təkcə azərbaycanlı hərbi qulluqçulara deyil, dinc sakinlərə də misli görünməmiş divan tutublar:

"1992-ci il fevralın 26-na keçən gecə Xocalıda 613 dinc sakin vəhşicəsinə qətlə yetirilib.

(Səh.5)

# Putinin gedişi...

## Kreml rəhbəri "Vaşinqton sənədi"ni qabartmaqla Qərbin vasitəçilik planını pozmaq istəyir




**Rusiya Prezidenti Vladimir Putin "Valday" diskussiya klubunda çıxışı zamanı Azərbaycan-Ermənistan arasında gedən danışıqlardan, sülh müqaviləsinin imzalanması prosesindən danışıb.**

Kreml rəhbəri İrəvanın "Vaşinqton və Moskva variantları" şəklində gündəmə gətirilən sülh sənədləri arasında get-gələ də münasibət bildirib.

(Səh.4)



## Kreml təsdiqləyib, oktyabrın 31-də görüşdür

Rusiya, Azərbaycan və Ermənistan liderlərinin üçtərəfli görüşü keçiriləcək

Oktyabrın 31-də Soçidə Rusiya, Azərbaycan və Ermənistan liderlərinin üçtərəfli görüşü olacaq.

(Səh.3)

## Ceyhun Bayramov tviterdə yazıb

Nazir ABŞ rəsmisi ilə Ermənistanla münasibətlərin normallaşdırılmasını müzakirə edib



Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Karen Donfrid Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesini müzakirə ediblər.

(Səh.3)

# "Missiya" təlatümlər gətirdi

## Cənubi Qafqazda vəziyyət gərginləşir



**Ermənistanın Avropadakı havadarları Bakı ilə İrəvan arasında yekun sülh müqaviləsinin imzalanması üçün bütün variantları işə salıblar.**

İrəvan Rusiyanı bölgədən sıxışdırmaq, Avropadakı tərəfdaşlarını regiona gətirmək və ümumilikdə Cənubi Qafqazda vəziyyəti gərgin saxlamaq üçün Qərbdəki müttəfiqlərinin bütün "təşəbbüs"lərini böyük məmnuniyyətlə qəbul etməkdədir.

Praqa görüşündə Avropa İttifaqının mülki missiyasının sərhədə yerləşməsinə razılıq verən İrəvan, daha sonra "ATƏT-in ehtiyacların qiymətləndirilməsi missiyası"nı regiona dəvət etdi. Hətta həmin missiya artıq Ermənistandadır və ilk patrul xidmətlərini də həyata keçiriblər.

(səh.8)



## 10 ildən sonra ilk görüş...

İsrail Türkiyəni bölgənin qlobal aktoru kimi görür

**Ankarada İsrailin Müdafiə naziri Benni Qantz ilə Türkiyənin Milli müdafiə naziri Hulusi Akar arasında görüş keçirilib.**

Bu, Türkiyə ilə İsrail müdafiə nazirləri arasında 10 ildən sonra baş tutan ilk görüşdür. Qantz Türkiyəni önəmli tərəfdaş kimi gördüklərini, təhlükəsizlik məsələlərində əməkdaşlığa hazır olduqlarını bəyan edib.

(səh.10)



## Nə koronavirus təhlükəsi qalıb, nə pandemiya

Elə bir ucdan xüsusi karantin rejimi uzadılır

(səh.9)



## "5-10 erməni dığasına görə xor kapellası yaradırlar"

Elman Məmmədov: "Bəs 4 minə yaxın Azərbaycan vətəndaşının taleyi sizi niyə maraqlandırmır?"

(səh.10)

## 1 nəfər vəfat edib

Daha 49 yeni yoluxma faktı qeydə alınıb

**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 49 yeni yoluxma faktı qeydə alınıb, 40 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslər arasında 1 nəfər vəfat edib.

(səh.9)

# Prezident İlham Əliyev Rəcəb Tayyib Ərdoğana təbrik məktubu göndərib

## "Bu gün də Qarabağ və Şərqi Zəngəzurun bərpasında Azərbaycana ən çox dəstək verən yenə də qardaş Türkiyədir"

**Prezident İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana təbrik məktubu göndərib.**

*Məktubda deyilir:*

"Hörmətli cənab Prezident,

Əziz Qardaşım,

Qardaş Türkiyənin milli bayramı - Respublika Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir, ən xoş və səmimi arzularımı çatdırıram.



Türkiyə gündən-günə güclənən, sürətlə inkişaf edən, beynəlxalq aləmdə söz sahibi olan ən qüdrətli ölkələrdən birinə çevrilmişdir. Bu gün siyasi, iqtisadi, hərbi, texnoloji və digər sahələrdə əldə etdiyi mühüm nailiyyətləri ilə qardaş Türkiyə ən qabaqcıl ölkələr sırasındadır. Eyni zamanda, son dərəcə mürəkkəb proseslərin cərəyan etdiyi dünyada və regionda sülhün və sabitliyin bərqərar olması, haqqın və ədalətin müdafiəsi naminə ardıcıl və qətiyyətli mövqeyi ilə ölkəniz beynəlxalq müstəvidə yüksək nüfuz və hörmət qazanmışdır.

Bütün bunların təməlində Sizin zəhmətiniz və yorulmaz əməyiniz, müdrik rəhbərliyiniz altında aparılan dövlət siyasətinə xalqınızın böyük etimadı və dəstəyi dayanır. Qüdrətli Türkiyə Respublikasının hər bir uğurunu öz uğurumuz hesab edir, bundan hədsiz qürur duyuruq.

İftixar hissi ilə qeyd etmək istərdim ki, dostluq və qardaşlıq üzərində qurulmuş Azərbaycan-Türkiyə əlaqələrinin bu gün dünyada bənzəri yoxdur. Əcdadlarımızın mənəvi mirası olan qardaşlığımız, birliyimiz və həmrəyliyimiz xalqlarımız üçün əsas yol istiqaməti, bölgə və dünya üçün mühüm təhlükəsizlik və sabitlik amilidir.

Tarixin ən önəmli anlarında Azərbaycana dayaq olmuş qardaş Türkiyənin İkinci Qarabağ müharibəsi zamanı da yanımızda olmasını, Siz başda olmaqla bütün xalqınızın müharibənin ilk saatlarından son dəqiqələrinə qədər bizi dəstəkləməsini daim yüksək qiymətləndirir və heç zaman unutmuruq. Bu gün də Qarabağ və Şərqi Zəngəzur bölgələrinin bərpası işində və yenidən qurulmasında Azərbaycana ən çox dəstək verən yenə də qardaş Türkiyədir. Bir neçə gün bundan əvvəl Sizin Azərbaycana səfəriniz çərçivəsində Zəngilan Beynəlxalq Hava Limanının, "Dost Aqropark" ağıllı kənd təsərrüfatı kompleksinin açılışında iştirakımız, bir sıra mühüm infrastruktur layihələrinin təməlini birgə qoymağımız qardaşlıq münasibətlərimizin sarsılmaz ənənələrinin bariz ifadəsidir.

Şuşa Bəyannaməsi ilə müttəfiqlik zirvəsinə ucalmış əlaqələrimizin həyatın bütün sahələrində, istər siyasət, iqtisadiyyat, enerji, nəqliyyat, mədəniyyət, təhsil, hərbi və digər sahələrdə özünü göstərməsi bizi çox sevindirir. Əminəm ki, "Bir millət iki dövlət" şüarını rəhbər tutan ölkələrimiz arasında müttəfiqlik münasibətləri birgə səylərimizlə bundan sonra da yüksələn xətlə və uğurla inkişaf etməyə davam edəcəkdir.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, ali dövləti fəaliyyətinizdə müvəffəqiyyətlər, qardaş Türkiyə xalqına daim əmin-amanlıq, rifah və firavanlıq arzulayıram".



## Zığ-Hövsan yolunun yenidən qurulmasına 7 milyon manat ayrılıb

**Prezident İlham Əliyev Bakı şəhəri Suraxanı rayonunun Zığ-Hövsan avtomobil yolunun yenidən qurulması ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.**

Sərəncama əsasən, əlli səkkiz min nəfər əhalinin yaşadığı 2 yaşayış məntəqəsini birləşdirən Zığ-Hövsan avtomobil yolunun yenidən qurulmasının başa çatdırılması məqsədilə "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.26.13-cü yarımbəndinə uyğun olaraq, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə 7 milyon manat ayrılıb.

Maliyyə Nazirliyinə bu Sərəncamda göstərilən məbləğdə maliyyələşməni təmin etmək, Nazirlər Kabinetinə bu Sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılıb.

# Ölkədə bir sıra infrastruktur obyektlər tikilir

## Ancaq onların idarəetməsində heç də hər zaman səmərəli idarəetməni görmürük

**Dünən Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində "Dövlət-özəl tərəfdaşlığı haqqında" qanun layihəsi müzakirə olunub. Qeyd olunub ki, qanun layihəsi 8 fəsil, 40 maddədən ibarətdir. Bu qanun qəbul edildikdən sonra dövlət-özəl tərəfdaşlığı sahəsində fəaliyyətin həyata keçirilməsinin təşkilati, hüquqi və iqtisadi əsaslarını müəyyən edəcək.**

"Dövlət-özəl tərəfdaşlığı haqqında" qanun layihəsinin müzakirəsi zamanı çıxış edən İqtisadiyyat naziri Mikayıl Cabbarov deyib ki, dövlət-özəl tərəfdaşlığı zamanı dövlət hətta səhmdar da ola bilər. Amma bu pay layihədə 49 faizdən çox olmamalıdır. Nazir bildirib ki, dövlət ümumiyyətlə, layihədə sərmayəçi, səhmdar olmaya da bilər".

**"Sərmayələrimiz azad olunmuş ərazilərin bərpasına yönəlib, maliyyə tələbatı artır"**

İqtisadiyyat naziri Mikayıl Cabbarov bildirib ki, sərmayələrimiz azad olunmuş ərazilərin bərpasına yönəlib, maliyyə tələbatı artır. Nazirin sözlərinə görə, bu da təbii olaraq hökumətin digər vacib infrastruktur layihələrinin həyata keçirilməsi üçün maliyyə tələbatını artırır, müəyyən mənada təzyiq yaradır: "Bu qanun layihəsindən gözlənti ondan ibarətdir ki, digər infrastruktur layihələrinin maliyyələşməsinə kömək edəcək və birbaşa dövlət maliyyələşməsindən asılılığı kifayət qədər azaldacaq. Bu gün beynəlxalq aləmdə kifayət qədər çalxalanmalar olur, 2020-ci ildə pandemiya olub. 2022-ci ilin oktyabr ayının sonuna həm Dövlət Gömrük Komitəsinin, həm də Dövlət Vergi Xidmətinin xətti ilə mədaxil proqnozunu artırmışıq".

**"İri dövlət şirkətlərində böyük həcmdə səmərəlilik potensialı var"**

M.Cabbarov qeyd edib ki, bir çox infrastruktur obyektləri tikilir, lakin onların idarə edilməsi səmərəli həyata keçirilmir: "Özəl investor maraqlı olur ki, işin keyfiyyətli təşkil edilməsi ilə gəlirlərini artırsın". Nazir deyib ki, özəl sərmayələrdən istifadə olunmazsa, bu, inkişafımızı məhdudlaşdıracaq: "Dövlət-özəl tərəfdaşlığı haqqında" qanun layihəsinin qəbul edilməsi üçün zərurət çox sadədir. İnkişaf getdikcə, biz ilkin infrastrukturu ödədikdən sonra iqtisadiyyat mürəkkəbləşir. Böyük kapital tutumlu layihələrə ehtiyac yaranır. Həyat şəraiti yaxşılaşdıqca həm əhali, həm də sahibkarlıq subyektləri tərəfindən gözləntilər də artır. Əgər biz özəl sərmayələrdən, eyni zamanda, xarici bazarlardan cəlb etdiyimiz sərmayələrdən istifadə etməyəcəyiksə, bu, bizim inkişafımızı məhdudlaşdıracaq. Biz bir çox infrastruktur obyektlərini tikirik. Ancaq onların idarəetməsində heç də hər zaman səmərəli idarəetməni görmürük. Prezident İlham Əliyev tərəfindən yaradılmış İnvestisiya Holdinqi bizim qarşımızda tam mənzərəni qoyur. İri dövlət şirkətlərində böyük həcmdə səmərəlilik potensialı var. Bu təkcə dövlət şirkətlərinə aid deyil. Bu da müəyyən mənada anlaşılandır. Heç də bütün



hallarda dövlət yaxşı sahibkar deyil. Özəl investordan fərqli olaraq, iqtisadi səmərəliliyə yönəlmir. Özəl sərmayəçi hər zaman daha keyfiyyətli işi təmin etməklə daha səmərəli işlər ortaya qoymaqda maraqlı olur. Dövlət başqa sahələrə yönəlməlidir. Qanunvericiliyin tənzimlənməsi və s. Amma iqtisadi risklərin aradan qaldırılması nəticəsində əldə edilən gəlirlərin özəl sərmayəçi tərəfindən idarə edilməsi daha səmərəli iş ortaya çıxarır. Bu bazar iqtisadiyyatının da tələbidir".

**"Azərbaycanda yerli investorlarla bağlı problemlər var"**

Deputat vurğulayıb ki, Azərbaycanda yerli investorlarla bağlı problemlər var: "Bu gün bu qanunun tələblərinə cavab verən şirkətlər bəllidir. Hamı üçün şərait yaradılacaqsa, bu qanunda maddələr genişlənməlidir. Burada əsas məsələ rəqabətliliyin qorunması məsələsidir. Amma rəqabət olmalıdır ki, onu qoruyaq. Rəqabətin qorunması yox, rəqabətliliyin təmin edilməsinin hüquqi bazası yaradılmalıdır. İkincisi, səlahiyyətli orqanının özünün məsuliyyəti ilə bağlı tənzimləmələr də hər hansı qanunda öz əksini tapmalıdır".

**"Gübrəyə görə bölgələrdə taxıl əkinində problem var"**

Deputat Vahid Əhmədov bildirib ki, taxıl istehsalı ilə bağlı bölgələrdə ciddi problem var: "Bu da gübrəyə görədir. Əsas gübrə Rusiyadan gəlir, onun qiyməti isə böyük sürətlə artır. İnsanlar gübrə alıb istifadə edə bilmirlər. Xaçmazda 20 min hektar sahədə taxıl əkilməlidir, hazırda yalnız 9 min hektara yaxını əkilib. Subsidiya ilə bağlı da problem var. Baxmayaraq elektronlaşıb, lakin problemlər qalmaqdadır. Biz Xaçmazda sahibkarlarla görüş keçirdik. Orada ən böyük problem taxıl, buğdanın istehsalı ilə bağlı məsələdir".

**"İqtisadiyyatımızda 85 faizinin özəl sektor olduğunu deyirik, amma mənfəətləri çox azdır"**

Deputat Ziyad Səmədzadə bildirib ki, Azərbaycan iqtisadiyyatı özünün yeni inkişaf mərhələsinə qədəm qoyub. Onun sözlərinə görə, 90-cı illərdə biz yeni iqtisadi sistemi formalaşdırırdıq: "O zaman bizim iqtisadiyyatımız çox zəif inkişaf edirdi. İndi isə Azərbaycanın iqtisadiyyatı inkişaf edib. Bu qanun bizə imkan verəcək ki, dünya ölkələri ilə əməkdaşlığımız genişlənsin. Artıq Azərbaycanın gələcək inkişafı ilə bağlı yanaşması yeni prioritetləri özündə əks etdirir. Azad olunmuş ərazilərdə görülən işlər onu göstərir ki, 10-15 il əvvəl biz bunu edə bilməzdik. Xarici investorlar kapitalı mənfəət olan yerə qoyurlar. Banklar Assosiasiyası da azad olunmuş ərazilərlə bağlı kifayət qədər bu gün işlər görür. Eyni zamanda yaxşı olardı ki, qanun layihəsində özəl sektorla əlaqədar məsələləri artıraq. Bu qanunda dövlət xidmətləri anlayışı öz əksini tapmayıb. İnfrastruktur layihələrinin həyata keçirilməsi özlüyündə görülən işlərdir. Amma qanunda buna başqa mənada yanaşılıb. Azərbaycan iqtisadiyyatında 85 faizinin özəl sektor olduğunu deyirik. Amma əsas onların mənfəətdir, mənfəətləri, səmərəliliyi çox azdır".

**İsmayıl Qocayev**

# Brüssel formatı fiaskoya uğraya bilər

## Soçi görüşünə Putin açıq kartla qatılır

**Ermənistan Rusiyanın təqdim etdiyi Bakı ilə münasibətlərin qurulmasının əsas prinsipləri ilə razılaşır. Bunu Ermənistanın Baş naziri Nikol Paşinyan "Tvitter"də yazıb.**

Baş nazir deyib ki, sentyabrın əvvəlində İrəvan Rusiyanın təqdim etdiyi Ermənistan və Azərbaycan arasında beynəlxalq münasibətlərin qurulması üçün əsas prinsiplər və parametrlər əsasında işləməyə razılaşıb: "Bunu Soçidə təsdiqləməyə hazırıq. Ümid edirik ki, Rusiya təkliflərini dəstəkləyəcək". Bu arada Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan Avropa İttifaqının (Aİ) Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə xüsusi nümayəndəsi Toivo Klaarla görüşüb. Görüş Aİ-nin xüsusi nümayəndəsinin Ermənistana səfəri çərçivəsində baş tutub. Armen Qriqoryan "Facebook" hesabında yazıb ki, İrəvan və Bakı arasında danışıqlar prosesindən danışılıb. "Hraparak" qəzeti Ermənistanın çətin geosiyasi seçim qarşısında olduğunu yazıb. Nəşr bildirib ki, bir tərəfdən İrəvana əvəzsiz dəstək verən Rusiya ilə çoxəsrlik coğrafi-tarixi əlaqələr, digər tərəfdən mütərəqqi və firavan Qərb, demokratik dəyərlər İrəvanı seçim qarşısında qoyub: "İrəvan ağır qərar qarşısındadır. Amma qərar verəndə Ukrayna məsələsini, onun bugünkü vəziyyətini də unutmamalıdır. Təcrübəsiz hökumətimiz düzgün istiqamət götürə və mürəkkəb münasibətlər dövründə Ermənistanı müdafiə edə biləcəkmi? Hər kəs narahatdır".



"Rusiya prezidenti Ermənistanla Azərbaycan arasında yeni müharibədə maraqlıdır"

**Politoloq Məhəmməd Əsədullazadə deyib ki, Tovio Klaarın Ermənistana səfəri çərçivəsində Nikol Paşinyanın dəyişə biləcək siyasi mövqeyi müzakirə ediləcək. Analitikə görə, Soçi görüşündə Paşinyan Putinin planını qəbul edərsə, Brüssel formatı fiaskoya uğraya bilər:** "Rusiya prezidenti Ermənistanla Azərbaycan arasında yeni müharibədə maraqlıdır. Rusiyanın iştirakı ilə üç sənəd imzalanıb. Kreml üç sənədi iki il ərzində manipulyasiya edib. Ona görə də Soçi görüşünə Putin açıq kartla qatılır. Azərbaycanın ərazi bütövlüyünə qarşı yeni sənəd ortaya çıxarıla bilər. Paşinyan məhz buna görə Rusiyanın irəli sürdüyü təkliflərlə razılaşacağını qeyd edib. Çox güman, Soçi görüşündən sonra ABŞ prosesə qatılacaq və növbəti dəfə İrəvanın "ipini çəkəcək". Rusiya isə Qarabağda qalıcılığını qorumaq üçün bütün avantüraya hazırdır. Moskva bir sıra ölkələr, o cümlədən İranla koordinasiyalı şəkildə fəaliyyət göstərir. Məncə, Soçi görüşündən sonra hərbi vəziyyət də gərginləşə bilər. Yəni Soçi görüşü həll yox, gərginləşdirmə variantıdır".

**İsmayıl**

# Ceyhun Bayramov tviterdə yazıb

## Nazir ABŞ rəsmisi ilə Ermənistanla münasibətlərin normallaşdırılmasını müzakirə edib




**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Karen Donfrid Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesini müzakirə ediblər.**

Bu barədə nazir tviterdə yazıb.

"ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Karen Donfrid ilə Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması və sülh səylərinin perspektivləri ilə bağlı telefon danışığı apardıq. Ölkəmizin regionda sülh və sabitliyin təmin olunmasına sadiqliyini və tam hazır olduğunu bir daha təsdiq etdim", - paylaşımda deyilir.

# Nensi Pelosinin evinə hücum edilib, əri xəsarət alıb

**ABŞ Konqresinin Nümayəndələr Palatasının spikeri Nensi Pelosinin əri Paul Pelosi evdə zorakı hücuma məruz qalıb.**

APA "Reuters"ə istinadən xəbər verir ki, bu barədə Nensi Pelosinin ofisi məlumat yayıb.

"Hücum edən şəxs artıq həbsdədir və bu hücumun motivləri araşdırılır. Cənab Pelosi xəstəxanaya aparılıb, ona yüksək səviyyədə tibbi yardım göstərilir və tezliklə tam sağalması gözlənilir", - məlumatda qeyd olunub.

Evə hücum səhər saatlarında olub və bu zaman Nensi Pelosi evdə olmayıb.



# Kreml təsdiqləyib, oktyabrın 31-də görüşdür

## Rusiya, Azərbaycan və Ermənistan liderlərinin üçtərəfli görüşü keçiriləcək

**Oktyabrın 31-də Soçidə Rusiya, Azərbaycan və Ermənistan liderlərinin üçtərəfli görüşü olacaq.**

APA xəbər verir ki, bu barədə Kremlin mətbuat xidməti məlumat yayıb.

Görüşdə 10 noyabr 2020-ci il, 11 yanvar və 26 noyabr 2021-ci il tarixli üçtərəfli bəyanatların icrasının reallaşdırılması, həmçinin Cənubi Qafqazda sabitlik və təhlükəsizliyin möhkəmləndirilməsi, iqtisadi-ticarət və nəqliyyat əlaqələrinin bərpası və inkişafı müzakirə olunacaq.

"Rusiya, Azərbaycan və Ermənistan liderləri arasında 9 noyabr 2020-ci il, 11 yanvar və 26 noyabr 2021-ci il tarixli üçtərəfli sazişlərin icrası, Cənubi Qafqazda sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi üzrə gələcək addımların nəzərdən keçirilməsi planlaşdırılır. Ticarət, iqtisadi və nəqliyyat əlaqələrinin bərpası və inkişafı məsələləri də müzakirə olunacaq", - Kremlin yaydığı məlumatda qeyd olunub.

Putinin Azərbaycan və Ermənistan liderləri ilə ayrılıqda görüşü də nəzərdə tutulub.

# Valyuta bazarında manata tələb yüksəkdir

## "Azərbaycanın valyuta ehtiyatları 55 milyard dolları ötüb"

**"Tədiyyə balansı 2023-cü ildə də profisitli olacaq". Bunu Azərbaycan Mərkəzi Bankının (AMB) sədri Taleh Kazımov onlayn rejimdə keçirdiyi mətbuat konfransında bildirib. MB rəhbəri deyib ki, cari əməliyyat balansında xarici ticarətin həcmi ötən ilin eyni dövrü ilə müqayisədə 3,1 dəfə artıb:**

"Biz həmçinin qeyri-neft sektorunda 17 faiz artım müşahidə edirik. Beynəlxalq Valyuta Fondu qlobal enerji daşıyıcılarının qiymətlərini bu ilin sonu və gələn ilin əvvəli üçün müvafiq olaraq 98,9 dollar və 85,52 dollar proqnozlaşdırıb. Bu isə bizə dəməyə imkan verir ki, gələn il tədiyə balansı profisitli olacaq".

**"Sanksiya altına düşə biləcək addım görməmişik"**

Taleh Kazımov bildirib ki, Azərbaycanın valyuta ehtiyatları bu ilin əvvəlindən 3,5 faiz artaraq 55,1 milyard ABŞ dollarına çatıb: "Azərbaycanda maliyyə şirkətlərinin 55,6 faizi zərərsizlik nöqtəsini keçib. Azərbaycan banklarında sanksiya ilə üzləşəcək hal aşkar edilməyib. Qərb ölkələri tərəfindən Rusiyaya qarşı tətbiq edilən sanksiyaları nəzərə alaraq Azərbaycan Mərkəzi Bankı bu istiqamətdə nəzarətini davam etdirir. Banklar sözügedən sanksiyalardan məlumatlıdırlar. Hər bir bank öz reputasiyasına xələl gətirməmək üçün diqqət edir. Hazırda sanksiya altına düşə biləcək addım görməmişik. "Mir" ödəniş sistemi Azərbaycanda çalışmır. Bu, münaqişədən əvvəl də belə idi".



**"AMB monetar siyasətini daha da sərtləşdirəcək"**

Mərkəzi Bankın sədri deyib ki, faiz dəhlizinin aşağı dərəcəsi bazara təsir etməyə başladığından, Mərkəzi Bankın İdarə Heyəti növbəti iclaslarda monetar siyasətinin daha da sərtləşdirilməsi istiqamətində qərarlar qəbul edəcəyini gözləyir: "Bizim yeni əməliyyat çərçivəmizin uğurlarını nəzərə alaraq faiz dəhlizinin aşağı həddini daraldacağıq. Vurğulamaq istəyirəm ki, faiz dəhlizinin aşağı həddinin bazara təsirini müşahidə edirik. Bu bizə əsas verir ki, monetar siyasətimizi sərtləşdirmək yönümündə qərarlarımızı verək".

**"Mərkəzi Bank yanında ictimai şuranın yaradılması müzakirə ediləcək"**

MB rəhbəri qeyd edib ki, Mərkəzi Bank yanında ictimai şuranın yaradılması müzakirə ediləcək: "Mərkəzi Bank bank, sığorta və investisiya sektorunun üzvləri ilə mütəmadi görüşlər keçirir. Bizim mandatımızı əhatə edən qurumlarla ikitərəfli və çoxtərəfli formatda əməkdaşlıq var. Sektorun bütün problemləri mütəmadi olaraq müxtəlif kanallarla bildirilir. Bununla belə, ictimai şuranın yaradılması daxildə müzakirə ediləcək. Maliyyə sektorunda sub sektorlarla, yəni banklar, sığorta və investisiya şirkətləri ilə rüblük əsasda mən daxil olmaqla görüşlər keçiririk. Bunu təklif kimi qəbul edirəm və məsələ ilə bağlı qərarımız olduqda açıqlayacağıq".

**"Milli reytinq agentliyinin yaradılması araşdırma mərhələsindədir"**

Takeh Kazımov deyib ki, milli reytinq agentliyinin yaradılması hazırda araşdırma fazasındadır. İqtisadi subyektlərlə müzakirələr gedir: "Mərkəzi Bank tərəfindən beynəlxalq maliyyə qurumları ilə birgə bu agentliyin strategiyası nə ola bilər, bu strategiyanın bizim həm kapital bazarına, həm də iqtisadiyyatın inkişafına necə təsir etməsi araşdırılır. Bununla bağlı qərarımızı 2023-cü ilin birinci rübündə açıqlayacağıq".

Taleh Kazımov bəyan edib ki, Azərbaycan valyuta bazarında manata tələb yüksəkdir. O qeyd edib ki, bu ilin sonuna qədər AMB-nin valyuta bazarına müdaxiləsi alışyönlü olmaqla qalacaq: "Amma biz monetar siyasətimizi yüksək iqtisadi aktivliyə təsir etmədən həyata keçirəcəyik. İlin əvvəlindən valyuta bazarından 967 milyon ABŞ dolları alınıb. Bu rəqəmin ilin sonuna qədər nə qədər olacağını proqnozlaşdırmaq çətindir, amma hələ ki, bazarda vəziyyət sabitdir".

**İsmayıl**

# Putinin gedişi...

## Kreml rəhbəri "Vaşinqton sənədi"ni qabartmaqla Qərbin vasitəçilik planını pozmaq istəyir



**Rusiya Prezidenti Vladimir Putin "Valday" diskussiya klubunda çıxışı zamanı Azərbaycan-Ermənistan arasında gedən danışıqlardan, sülh müqaviləsinin imzalanması prosesindən danışıb. Kreml rəhbəri İrəvanın "Vaşinqton və Moskva variantları" şəklində gündəmə gətirilən sülh sənədləri arasında get-gələ də münasibət bildirib. Putin birmənalı bəyan edib ki, tərəflər arasında mütləq sülh sazişi olmalıdır. Dövlət başçısı deyib ki, hansı variant seçilməsindən asılı olmayaraq, proses sülhə gətirib çıxarırsa, hamı bunun tərəfdarı olacaq:**

"Amma biz heç nəyi məcbur etmək fikrində deyilik. Biz Ermənistana nə isə diktə edə bilmərik və niyyətimiz də yoxdur. Əgər erməni xalqı və Ermənistan hakimiyyəti hesab edirsə ki, bu sülh sazişinin hansısa konkret variantını seçmək lazımdır, biz erməni xalqının istənilən seçimini dəstəkləyəcəyik. "Vaşinqton variantı" başa düşdüyüm qədərincə, Azərbaycanın Qarabağ üzərində tam suverenliyinin tanınmasını əks etdirir. Yox əgər erməni xalqı və Ermənistan hakimiyyəti hesab edirsə ki, Qarabağın özünəməxsus xüsusiyyətləri var və gələcək sülh müqaviləsində bu xüsusiyyətlər nəzərə alınmalıdır, bu da mümkündür. Ancaq əlbəttə ki, Azərbaycanla razılaşmaq lazımdır. Bu sazişin Azərbaycan üçün də məqbul olması lazımdır. Bu ağır, çətin məsələdir".

Putin əlavə edib ki, Ermənistan Moskvanın strateji partnyoru, müttəfiqidir: "Biz, əlbəttə ki, Azərbaycanın maraqlarını nəzərə alaraq, Ermənistanın təklif edəcəyini böyük ölçüdə rəhbər tutacağıq". Qeyd edək ki, Ermənistanda bəzi siyasi dairələr və politoloqlar sülhün "Vaşinqton" və "Moskva" variantları olduğunu, guya, Ermənistan rəhbərinin "Vaşinqton variantı"nı imzalamağa razılaşdığını, "Moskva variantı"nın ermənilərin maraqlarına qəti uyğun olmadığını iddia edirlər.

Analitiklərin fikrincə, Putin öz fikirləri ilə Ermənistana diş göstərsə də, Azərbaycanla fikir ayrılıqlarını da etiraf etmiş olur.

**Siyasi şərhçi Asif Nərimanlı "Şərq"ə deyib ki, Putinin "Valday" klubunda Qarabağla bağlı açıqlaması Moskvanın Xankəndidəki separatçılara dəstəyi kimi qəbul edilə bilər. Ekspertə görə, bölgədə Qərb-Rusiya qarşıdurması və Ermənistan hakimiyyətinin planı fonunda Kremlin daha çox "dağıdıcı" gediş etdiyini demək mümkündür:** "Qarabağ üzərində Azərbaycanın suverenliyinin qəbul edildiyi "Vaşinqton sənədi" haqda Putin ermənilərə iki seçim verir. Erməni xalqı bunu qəbul edərsə, seçimlərini dəstəkləyəcək. Putin ermənilərə "Qarabağı istəyirsinizsə, Vaşinqton yox, Moskva sənədini seçməlisiniz" mesajını çatdırır. Lakin fikrinin davamı olaraq "təbii ki, biz Azərbaycanla danışıqlar aparmalıyıq, bu razılaşmalar Azərbaycan üçün məqbul olmalıdır" deməklə erməni xalqına "Paşinyan Qarabağdan imtina edir", "Qarabağın xilası" imkanının Rusiyada olduğu mesajını verir. Erməni ictimai rəyi üzərindən Paşinyana təzyiqin edilməsinə nail olmaq və sülh sazişinin imzalanmasında Qərbin vasitəçilik planını pozmaq istəyir. Lakin "Qarabağın xilası" üçün vəd vermir. Moskvanın Bakı ilə danışıqlarda bu məsələnin "müzakirəsini təşkil edə biləcəyini" deyir. Məqsədin Rusiyanın təşəbbüsü yenidən ələ alması olduğu aydındır və bunun mümkün Soçi görüşündən öncə açıqlanması da erməni ictimai rəyini formalaşdırmaq məqsədi daşıyır. Hərçənd, "Vaşinqton sənədi" fonunda Putinin fikirləri fərqli kontekstdə də diqqət çəkir".

**A.Nərimanlı vurğulayıb ki, "Vaşinqton sənədi" Qarabağda Azərbaycanın suverenliyini tam tanıyır. Lakin kommunikasiyanın açılması (Zəngəzur dəhlizi) və sərhədin delimitasiyası məsələsində Ermənistanın maraqlarına uyğundur:** "Nikol Paşinyanın planı beledir ki, kommunikasiya və delimitasiyada istəyinə nail olmaq üçün sənədlə Qarabağdan imtina edir. Lakin problemi "hüquqi münaqişə" olaraq saxlamaq istəyir. Erməni əhalisinin "hüquq və təhlükəsizliyinin qorunması" adı altında "müqəddəratını təyin etmə" iddiası qalır. Separatçıların taleyi ilə bağlı yekun nəticənin məsuliyyətini Moskvanın üzərinə yükləyir. Bu həm Bakı və Ankara ilə üz-üzə qalmaq, həm də bölgədə uzunmüddətli mövcudluğunu saxlamaq imkanının zəifləməsi baxımından Moskvanın maraqlarına uyğun deyil. Bu baxımdan, Putinin "Vaşinqton sənədi" və ermənilərə seçim verməsi daha çox Paşinyanın-Qərbin planına qarşı "dağıdıcı" gediş etməkdir".

**İsmayıl Qocayev**

# Azad edilmiş ərazilərdə kütləvi məzarlıqlar aşkarlanıb

## 450-dən artıq insan meyitinin qalıqları çıxarılaraq ekshumasiya edilib



**İşğaldan azad edilmiş torpaqlarda kütləvi məzarlıqlar aşkarlanıb.**

Respublika Hərbi Prokurorluğundan "Şərq"ə verilən məlumata görə, azad edilmiş ərazilərdə, o cümlədən Şuşa rayonunun Daşaltı, Xocavənd rayonunun Edilli, Ağdam rayonunun Sırxavənd kəndləri, eləcə də Xocalı rayonunun Fərrux kəndində və digər ərazilərdə Azərbaycan Respublikası Hərbi Prokurorluğunun əməkdaşları tərəfindən Dövlət Təhlükəsizliyi Xidmətinin, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının, Beynəlxalq Qızıl Xaç Komitəsinin və digər aidiyyəti qurumların nümayəndələri ilə birlikdə aparılmış müvafiq axtarış tədbirləri nəticəsində kütləvi məzarlıqlar aşkarlanıb.

Azərbaycan Hərbi Prokurorluğunda Cinayət Məcəlləsinin 115.4-cü, 120.2.7-ci, 120.2.12-ci və digər maddələri ilə istintaq olunan cinayət işi üzrə məzarlıqlardan Birinci Qarabağ müharibəsi dövründə itkin düşmüş şəxslərə məxsus olması ehtimal olunan 450-dən artıq insan meyitinin qalıqları çıxarılaraq ekshumasiya edilib. Həmin meyit qalıqları ilə bağlı 300-ə yaxın məhkəmə-tibbi və 280-dən artıq molekulyar-genetik ekspertizaları təyin olunaraq icraya yönəldilib. Eləcə də şahidlər dindirilib və digər zəruri istintaq-əməliyyat tədbirləri yerinə yetirilib.

Baş prokurorunun müavini-Azərbaycanın Hərbi prokuroru, ədliyyə general-leytenantı Xanlar Vəliyev bu il oktyabrın 26-da qeyd olunan ərazilərə gedərək həmin cinayət işinin istintaqının gedişatı ilə yerində maraqlanıb, müvafiq tövsiyələr və tapşırıqlar verib.

Hazırda cinayət işi üzrə istintaq-əməliyyat tədbirləri davam etdirilir.

# Zelenski Ərdoğanı təbrik edib

**Ukrayna Prezidenti Vladimir Zelenski Türkiyə Respublikasının yaranmasının 99-cu ildönümü münasibətilə "Twitter"də paylaşım edib.**

APA xəbər verir ki, paylaşımda deyilir:

"Türkiyə Respublikasının elan edilməsinin 99-cu ildönümü münasibətilə Prezident Rəcəb Tayyib Ərdoğanı təbrik edirəm. Dost türk xalqına sülh, əmin-amanlıq və rifah arzulayıram. Ortaq fəaliyyətimizin Qara dəniz bölgəsinə sülh, təhlükəsizlik və istiqrarın geri gəlməsini təmin edəcəyinə inanıram".



# "Rusiya bölgədə sülhün yaranmasında maraqlı deyil"

## Turab Rzayev: "Nə vaxtsa, sülh imzalanarsa, Rusiya şərtləri özü diktə etməyə səy göstərəcək"

**Ermənistan və Azərbaycan arasında davam edən çoxillik Qarabağ məsələsini bəzən yaxından izləyən, bəzən də vasitəçilik edən ölkələrdən biri də Rusiyadır.**

"Can üstündə" olan Rusiya, Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanması istiqamətində canfəşanlıq göstərir. Uzun müddətdir ki, Rusiya tərəflər arasında sülh müqaviləsinin imzalanmasını dəstəklədiyini bildirir.

Bu dəfə isə Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova brifinq zamanı Azərbaycan, Rusiya və Ermənistan üçtərəfli görüşü barədə verilən sualı şərh edərkən həmin məsələyə toxunub: "Görüşlərin ən yüksək səviyyədə təşkili məsələsini Rusiya tərəfindən Prezident Aparatı cavablandırır"-, deyib.

**Rəsmi Moskvanın mövqeyini "Şərq"ə dəyərləndirən analitik Turab Rzayevin qənaətincə, Rusiya bölgədə sülhün yaradılmasında maraqlı deyil:** "Azərbaycan sülhün tərəfdarıdır. İl sonu, növbəti ilin əvvəlinə kimi sülh prosesini yekunlaşdırmağı hədəfləyir. Eyni fikri Ermənistan haqqında da söyləyə bilərik.

Çünki Baş nazir Nikol Paşinyan dəfələrlə vurğulayıb ki, il sonuna qədər sülh müvaqiləsinin imzalanması mümkündür.

Digər tərəfdən Qərbin dəstəyi açıq-aydın görünür. Avropa İttifaqı sülh prosesini dəstəkləyir. Rəsmi Vaşinqtonun dövlət katibi Entoni Blinken də Avropanın sülh yaratmaq missiyasını dəstəklədiyini diqqətə çatdırır.

Rusiya Azərbaycanla Ermənistanın ondan kənar sülh müqaviləsi imzalaya biləcəyini anlayır və maksimum mane olmağa çalışır.

Rusiya başqa dövlətlərin vasitəçilik etməsini istəmir. Sülh barədə tez-tez açıqlamalar verir. Lakin heç bir əhəmiyyətli addım atılmayıb. "Vaşinqton planı" Azərbaycanın suverenliyinin təmin olunması yönündədir.

Tutalım, Putin Qarabağ üzərindən Azərbaycanın suverenliyinin hansısa şəkildə qəbulunun əleyhinədir. Onda Qarabağı müstəqil, yoxsa yeni "Donetsk və Luqansk" vilayəti kimi görmək istəyir?

Nə vaxtsa, sülh imzalanarsa, Rusiya şərtləri özü diktə etməyə səy göstərəcək. Nəticə etibarilə Kreml Azərbaycanın Qarabağ üzərində suverenliyinin təmininin tərəfdarı deyil".

**Aygün Tahir**



# “Biz torpaqlarımızın bir qarışını da verməyəcəyik”

## Əli Əsədov Qriqoryanın əsassız ittihamlarına sərt cavab verdi

**Müstəqil Dövlətlər Birliyi Hökumət Başçıları Şurasının Astanada keçirilən iclasında Azərbaycanın Baş naziri Əli Əsədov Birinci Qarabağ müharibəsinin gedişində Ermənistanın törətdiyi cinayətlərə diqqəti cəlb edib. Baş nazir deyib ki, Birinci Qarabağ müharibəsində erməni hərbi qulluqçular təkcə azərbaycanlı hərbi qulluqçulara deyil, dinc sakinlərə də misli görünməmiş divan tutublar:**

”1992-ci il fevralın 26-na keçən gecə Xocalıda 613 dinc sakin vəhşicəsinə qətlə yetirilib. Dörd minə yaxın azərbaycanlının taleyi barədə bu günə qədər heç bir məlumat təqdim edilməyib. İşğaldan sonra biz həm hərbi qulluqçuların, həm də dinc əhalinin kütləvi məzarlıqlarını aşkar edirik”. Əli Əsədov bir daha bəyan edib ki, Azərbaycan özünün bütün öhdəliklərini yerinə yetirib, yerinə yetirir və yerinə yetirəcək.

**“Azərbaycanın irəli sürdüyü 5 prinsip Ermənistan tərəfindən dəstəklənmişdi...”**

Ermənistan baş nazirinin müavini Mqer Qriqoryan çıxışında Azərbaycanın ünvanına bir sıra əsassız ittihamlar səsləndirib. Əli Əsədov Ermənistanın baş nazirinin müavininin əsassız ittihamlarına cavab verib. 44 günlük müharibədə Qələbədən sonra Qarabağ münaqişəsinin başa çatdığını bildirən baş nazir deyib ki, Azərbaycan işğal olunmuş ərazilərini özü azad edib və qonşu dövlətlə sülh sazişi imzalamağa hazırdır: ”Azərbaycanın irəli sürdüyü beş prinsip Ermənistan tərəfindən əsasən dəstəklənmişdi. Biz bu mövqedən çıxış edərək bu gün gündəlikdəki məsələlər barədə konstruktiv ruhda danışmağa çalışmışıq. Lakin Ermənistanın baş nazirinin müavini tərəfindən burada ölkəm barədə faktların qərəzli və kobud şəkildə təhrif olunması məni çıxış üçün bir daha söz almağa məcbur etdi. Fəlsəfədə əxlaq deyilən bir anlayış var. Əxlaq həm insani, həm də dövlətlərarası münasibətlərə aiddir. Ermənistan qonşu dövlətin ərazisini 30 il ərzində işğal altında saxlayıb. Keçmiş Dağlıq Qarabağa heç bir aidiyyəti olmayan yeddi rayonu işğal edib. Silahlı qüvvələri suveren qonşu dövlətin ərazisində daşı-daş üstündə qoymayıb. Dağıdıla bilərək nə varsa hamısını - şəhərləri, kəndləri, bütün canlı və cansız varlıqları, ekologiyanı, əxlaqi, mənəvi dəyərləri məhv edib. İndi bu ölkə guya bizim Silahlı Qüvvələrimiz tərəfindən Ermənistanın ərazi bütövlüyünü pozan hansısa məqamlardan danışır”.

**“Ermənistan rəhbərliyinin mövqeyi bizim üçün anlaşılmazdır”**

Əli Əsədov daha sonra qeyd edib: ”Bu proses dünən başlamayıb. Siz hamınız bunu bilirsiniz. Düşünürdük ki, münaqişə başa çatıb və biz dinc əməkdaşlığa hazırıq. Mən öz çıxışımda bununla əlaqədar dedim ki, biz Azərbaycan və Rusiya prezidentlərinin, habelə Ermənistanın baş nazirinin 2020-ci və 2021-ci illərdə imzaladıqları üçtərəfli bəyanatlara tərəfdarıq. Təəssüf ki, Ermənistan rəhbərliyinin mövqeyi bizim üçün anlaşılmazdır. Prinsip etibarilə bu, onların işidir. Baş nazir bir söz deyir, onun müavini isə tamam başqa söz. Bu, Ermənistanın daxili-siyasi mövqeyidir, bu, onların işidir. Lakin biz nəyəsə hədəflənməliyik. Mən Ermənistan nümayəndəsinin də iştirakı ilə bir neçə dəfə demişəm ki, hər bir dövlət üçün qırmızı xətlər var. Azərbaycan Ermənistanla dinc əməkdaşlığa, sülh sazişi bağlamağa hazırdır. Lakin biz öz torpağımızın bir qarışını da verməyəcəyik”.

> “Mən Ermənistan nümayəndəsinin də iştirakı ilə bir neçə dəfə demişəm ki, hər bir dövlət üçün qırmızı xətlər var”

**“Demişik ki, Azərbaycan ərazisində heç bir Dağlıq Qarabağ mövcud deyil”**

Baş nazir Əli Əsədov deyib ki, sərhədlərin delimitasiyası üzrə komissiyanın Ermənistan tərəfindən olan rəhbəri deyir ki, bu proseslər getmir: ”Azərbaycan birinci gündən bu prosesdə iştirak edir. Ermənistan bu prosesi bir neçə dəfə pozub. Biz bu prosesi davam etdirməyə hazırıq. Azərbaycanın suveren ərazisi müzakirə mövzusu deyil. Qarabağ Azərbaycandır! Demişik ki, Azərbaycan ərazisində heç bir Dağlıq Qarabağ mövcud deyil. Qarabağ iqtisadi rayonu və Azərbaycanın erməni mənşəli vətəndaşları var. Əgər onlar Azərbaycan vətəndaşlığını tanıyarlarsa, bizim Prezident İlham Əliyevin dediyi kimi, Azərbaycan qanunlarına tabe olsalar, Azərbaycanın başqa millətlərdən olan bütün vətəndaşları kimi, onların da bütün hüquqları təmin ediləcək”.

**“Zəngəzur dəhlizinin açılmasından sonra bölgənin cəlbediciliyi xeyli yüksələcək”**

Əli Əsədov Zəngəzur dəhlizinin əhəmiyyətindən də danışıb: ”Azərbaycanda milli iqtisadiyyatın intensiv inkişaf edən və perspektivli seqmenti kimi nəqliyyat sektoruna xüsusi diqqət yetirilir. Azərbaycan öz nəqliyyat potensialını fəal şəkildə inkişaf etdirməklə ”Şimal-Cənub”, ”Şərq-Qərb”, Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu kimi layihələrin həyata keçirilməsinə mühüm töhfə verir. 44 günlük müharibənin başa çatmasından sonra regionda yaranan yeni reallıqlar iqtisadi və nəqliyyat sahələrində əməkdaşlığın qurulmasına müsbət təsir göstərir. Qeyd olunub ki, Qarabağ münaqişəsinə son qoyulması iqtisadi və kommunikasiya əlaqələrinin bərpası yolu ilə uzunmüddətli sülh və sabitliyə nail olmaq üçün yeni imkanlar yaradıb ki, bu da Birlik ölkələri də daxil olmaqla iqtisadi əməkdaşlığın genişlənməsinə töhfə verəcək”. Ə.Əsədov Zəngəzur dəhlizinin açılmasından sonra rayonun cəlbediciliyinin xeyli yüksələcəyi, bunun, tranzit imkanlarını bir neçə dəfə artıracağı və bütövlükdə investisiya mühitinin möhkəmlənməsinə xidmət edəcəyini deyib. Bildirib ki, 2021-2022-ci illərdə Azərbaycan işğaldan azad edilmiş ərazilərin bərpası üçün təqribən 3 milyard dolları məbləğində vəsait ayırıb. Məcburi köçkünlərin öz doğma yurdlarına qaytarılması istiqamətində fəal iş aparılır: ”İşlərin miqyası və onların həyata keçirilmə müddəti bizim işğaldan azad edilmiş əraziləri bərpa etmək və inkişaf etdirmək əzmimizi əyani şəkildə nümayiş etdirir ki, bu da regionda münaqişədən sonrakı sabitliyə töhfə verir”.

**“Ermənistanın Naxçıvanla kommunikasiyanın yaradılması istiqamətində işlər apardığını görmürük”**

Əli Əsədov bildirib ki, Ermənistan bir il doqquz ay ərzində istər dəmiryol, istərsə də avtomobil yolu üzrə heç bir real tədbir görməyib: ”Üçtərəfli bəyanatın bir bəndində nəqliyyat kommunikasiyalarının açılması nəzərdə tutulur. Həmin Bəyanata görə, Azərbaycan öz üzərinə öhdəlik götürüb ki, Laçın yolu fəaliyyət göstərəcək və Azərbaycan onun təhlükəsizliyinə zəmanət verir. Biz bütün öhdəliklərimizi yerinə yetiririk. Laçın yolu bu gün işləyir, dəhliz işləyir. Eyni zamanda bizim Azərbaycanın əsas hissəsindən Naxçıvan Muxtar Respublikasına getmək imkanımız yoxdur. Nəinki imkan yoxdur, hətta biz Ermənistan ərazisində bu istiqamətdə hər hansı işlərin aparıldığını görmürük. Ermənistanın baş nazirinin müavini həm də nəqliyyatın bərpası üzrə üçtərəfli qrupun həmsədridir. Orada 40-44 kilometr uzunluğunda kiçik bir sahə var. Ermənistan bir il doqquz ay ərzində istər dəmiryol, istərsə də avtomobil yolu üzrə heç bir real tədbir görməyib”.

**İsmayıl**

# Müqavilənin bağlanmaması İrəvana ziyan vuracaq

## Tural İrfan: “Qərb versiyası gündəmə gəlsə belə Azərbaycan irəli sürdüyü tələb və maraqlarından vaz keçməyəcək”



**”İnanıram ki, yaxın zamanda Azərbaycanla Ermənistan arasında sülh müqaviləsi imzalanacaq”.**

*Bu barədə ”Şərq”ə siyasi şərhçi Tural İrfan deyib. Analitik bildirib ki, əsas Azərbaycan və Ermənistanın məsələyə yanaşmasıdır, kənar dairələrin arzusu ikinci dərəcəlidir:* ”Ermənistanın Rusiyaya qarşı kəskin mövqeyi ancaq özünə ziyan edə bilər və müqavilənin Rusiya variantının qəbul edilməməsi Rusiyanı Ermənistana qarşı daha kəskin mövqe tutmağa təşviq edə bilər. Azərbaycan həm Qərb, həm də Risiya ilə normal səviyyədə əlaqələrə malikdir. Müqavilənin Qərb versiyası gündəmə gəlsə belə Azərbaycan irəli sürdüyü tələb və maraqlarından vaz keçməyəcək. Müqavilənin imzalanmaması Ermənistanı geri salacaq və İrəvana ziyan vuracaq. Ermənistan müstəqil qərar verməyi öyrənməli, başqalarının xaltasını boynundan çıxartmalıdır. Qərbə meyillənmək, Qərb dəyərlərinə üz tutmaq başqadır, Qərbin diktəsi ilə addım atmaq tam başqadır. Ona görə nə qədər ki, Ermənistan onun-bunun diktəsi ilə hərəkət edəcək, bu, özünün ziyanına olacaq. Görünür, Qərbdə müəyyən dairələr Ermənistanı Rusiya ilə bağlı arxayın salmağa cəhd edir. Lakin İrəvan ”Qərbin dəstəyi” ilə bağlı bir çox pis nümunələri unutmamalıdır”.

**İsmayıl**

# KTMT çağırış edib

## Bakı ilə İrəvan arasındakı ziddiyyətlər diplomatik yollarla həll olunmalıdır



**Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) Kollektiv Təhlükəsizlik Şurası Bakı ilə İrəvan arasındakı ziddiyyətlərin diplomatik vasitələrlə həllinin lehinə çıxış edib.**

”Report” TASS-a istinadən xəbər verir ki, bu barədə KTMT-nin saytında təşkilatın Kollektiv Təhlükəsizlik Şurasının növbədənkənar sessiyasının yekunlarına dair dərc olunmuş məlumatda deyilir.

”Mövcud ziddiyyətlərin və mübahisəli məsələlərin siyasi və diplomatik yollarla, o cümlədən 10 noyabr 2020-ci il, 11 yanvar 2021-ci il və 26 noyabr 2021-ci il tarixlərində qəbul edilmiş üçtərəfli bəyanatlarda əksini tapmış razılaşmalara uyğun olaraq həll edilməsinə qəti əminlik ifadə olunub”, - KTMT-dən bildiriblər.

# Rusiyada qismən səfərbərlik tədbirləri başa çatıb

**Rusiyada qismən səfərbərlik başa çatıb. Bu barədə müdafiə naziri Sergey Şoyqu Prezident Vladimir Putinə məruzəsində bildirib.**

Nazir qeyd edib ki, sentyabrın 28-də qismən səfərbərlik çərçivəsində hərbi xidmətə çağırılan şəxslərin yola salınması başa çatıb. Bundan sonra hərbi komissarlıqlar yalnız könüllüləri və müqavilə ilə hərbi xidmət keçmək istəyənləri qeydiyyata alacaq.

S.Şoyqu 300 min nəfərin qismən səfərbərliyə cəlb olunduğunu, əlavə səfərbərlik tədbirlərinin nəzərdə tutulmadığını bildirib. Hazırda səfərbərliyə cəlb olunmuş 82 min nəfər döyüş bölgələrinə göndərilib, 218 min nəfər isə hazırlıq keçir.

# Ukraynada gördük...

## İranın hərbi ritorikası daha çox hədələmək üçündür

**İran hakimiyyətinin yürütdüyü daxili və xarici siyasət ölkə həyatının bütün sahələrinə mənfi təsir göstərir. Rusiyanın Ukraynadakı müharibədə İran istehsalı olan kamikadze dronlardan istifadə etməsi Tehrana qarşı yeni qadağaların tətbiqini gündəliyə gətirib. İslam Respublikası Ukraynada tətbiqi üçün Rusiyaya dronlar tədarük etməkdə ittiham olunur.**

Bu səbəbdən Avropa İttifaqı və Böyük Britaniya ötən həftə İrana qarşı sanksiyalar tətbiq edib. İran Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, general-mayor Məhəmməd Hüseyn Baqiri, İran Müdafiə Nazirliyi yanında Sənaye Araşdırmalar Birliyinin direktoru, general Seyid Höcətullah Qureyşi və İnqilab Keşikçiləri Qvardiyası Aerokosmik Qüvvələrinin komandanı, briqada generalı Seyid Ağacani sanksiya siyahısına daxil edilib. Bu qadağalara ABŞ-ın yaxın günlərdə qoşulacağı gözlənilir. Bununla belə, Ağ Ev hələ sentyabrın əvvəlində Rusiyaya göndərilən pilotsuz təyyarələrlə bağlı İranın 4 şirkətinə və 1 fiziki şəxsə sanksiya tətbiq edib.

**Politoloq Sədrəddin Soltan deyib ki, əslində, İran istehsalı olan dronlar Ukraynanın istifadə etdiklərindən zəif görünür. Xəbərlərə əsasən, İranın 273 "Şahed-136" PUA-sı məhv edilib. İran bu dronları ABŞ və İsraildən oğurlanan texnologiyalar əsasında hazırlayıb. Ancaq texnologiya əsl olmadığından onların döyüşlərdə ABŞ, İsrail, Türkiyə dronlarına məğlub olduğu Ukraynada təsdiqlənir:** "Sanksiyalara görə, İrana yeni texnologiyalar verilmir. Bu səbəbdən İslam Respublikasının bu sahədə plagiatlıq etdiyi bildirilir. Bu isə "istehsal" olunan hərbi texnika və avadanlığın keyfiyyət göstəricisinə mənfi təsir göstərir. Hərbi təyyarələr 1970-ci illərə və daha əvvəllərə aid modellərdir. Belə hərbi hava maşınlarında istifadə edilən detalların müddəti bitdiyindən təlim və başqa məqsədlə keçirilən uçuşlar zamanı tez-tez qəzaya uğrayır, yaxud döyüş tapşırıqlarını yerinə yetirə bilmir. Qeyd edək ki, 1925-ci ildən 1979-cu ilədək İran hərbi texnika, silah və sursatı əsasən, ABŞ, Böyük Britaniya, Fransa, AFRŞ, İtaliya, İsrail və SSRİ-dən alırdı. 1980-88-ci illərdə İraqla müharibədə şahdanqalma silah arsenalı Tehran hakimiyyətinin əhəmiyyətli dərəcədə işinə yaradı. Bununla belə İran müharibə zamanı SSRİ, Şimali Koreya, Braziliya və Çindən silah almağa başladı. Pandemiyadan əvvəl 2018-ci ildə İslam Respublikasının müdafiə büdcəsi 18 milyard dollar təşkil edib. Halbuki, həmin dövrdə İranın rəqibi Səudiyyə Ərəbistanı bu sahəyə 70 milyard dollara yaxın vəsait xərcləyib. İran hərbi təyyarələrin modeli və sayına görə də Səudiyyə Ərəbistanından geri qalır. İranın inqilab keşikçiləri qvardiyası ilə birlikdə 523 min hərbçisi olduğu bildirilir. Ehtiyatda 350 min hərbçi var. Təbii ki, bu, rəsmi məlumatlardır. Yəni rəqəmlər fərqli də ola bilər. Çünki İslam Respublikasının Silahlı Qüvvələrinin fəaliyyəti və xərcləri haqqında məlumat şəffaf deyil".



"Bu ölkənin hərbi texnika və silahları region dövlətlərindən xeyli zəifdir"

**Ekspert bildirib ki, İranda silahlı qüvvələr daxilində daim qarşıdurma olub:** "Bu il qvardiya daxilində çoxsaylı müəmmalı qətllər, istefalar, yoxaçıxmalara dair yayılan xəbərlər də bunu təsdiqləyir. Təhlükəsizliyi təmin etmək üçün İranın hərbi qüvvələrinin sayıqlığı da aşağı səviyyədədir. 4 il öncə sentyabrın 24-də İranda hərbi paradda törədilən terror aktını buna nümunə olaraq göstərə bilərik. Əl-Əhvaz şəhərində keçirilən paraddakı hadisə nəticəsində 28 nəfər həlak olub, daha 60 nəfər yaralanıb. Belə faktlar İran ordusunun hərbi texnika və silahlarının region dövlətlərindən xeyli zəif olduğunu təsdiqləyir. İran bu alayarımçıq silahları və hərbi qurğuları ilə region dövlətlərini hədələyir, savaşmaq üçün vurnuxur. İsrail, NATO və ABŞ-ı təqlid edir. Tehran hakimiyyəti bu ölkələrin 30 il əvvəlki texnologiyaları əsasında texnika hazırlamaqla onlara qarşı mübarizə aparmağa səy göstərir. Odur ki, İranın hərbi texnika nümayişi və hərbi ritorikası daha çox hədələmək üçündür".

**İsmayıl**



# "Türkiyənin yüz ili"

## Ərdoğan Ankarada proqramı elan edib



**Türkiyənin hakim Ədalət və İnkişaf Partiyası (AK Parti) "Türkiyənin yüz ili" (Türkiyənin əsri, Türkiyənin qarşıdakı yüz ili və s.) şüarı altında ümumrespublika təqdimat toplantısı keçirib.**

Azərtac xəbər verir ki, xarici ölkələrdən yalnız Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun rəhbərliyi ilə Azərbaycan nümayəndə heyətinin iştirak etdiyi toplantıya Türkiyədə fəaliyyət göstərənsiyasi partiyalardan cəmi 11-i dəvət olunub.

Toplantıda çıxış edən Prezident Rəcəb Tayyib Ərdoğan AK Partiyanın ötən dövrdə qazandığı uğurlar barədə məlumat verib, "Türkiyənin yüz ili" strateji inkişaf proqramını açıqlayıb.

"Türkiyənin yüz ili bacarığın yüz ilidir!", "Türkiyənin yüz ili inamın və sabitliyin yüz ilidir!", "Türkiyənin yüz ili, elimin yüz ilidir!", "Türkiyənin yüz ili ictimai münasibətlər ilidir!", "Türkiyənin yüz ili rəqəmsal inkişafın yüz ilidir", "Türkiyənin yüz ili qüdrətin yüz ilidir!" və digər şüarlar altında elan olunan proqram ölkənin növbəti yüz il üçün strateji yol xəritəsini özündə əks etdirir.

*Qeyd edək ki, tədbirdə iştirak edən Azərbaycan nümayəndə heyətində Milli Məclisin deputatı, Azərbaycan-Türkiyə dostluq qrupunun üzvü Ramil Həsən və YAP Mərkəzi Aparatının İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nurlan Qələndərov da təmsil olunur.*

# Putin hədəflərini açıq söylədi

## Kreml Bakı ilə İrəvan arasındakı sülhün tezliklə bərqərar olmasını istəmir

**"Ermənistanla Azərbaycan arasında sülh sazişi lazımdır, amma biz İrəvanı məcbur və ya diktə edə bilmərik".**

**Bunu Rusiya Prezidenti Vladimir Putin "Valday" beynəlxalq diskussiya klubunun plenar iclasında bildirib.**

O qeyd edib ki, Rusiya Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin bağlanması ideyasını dəstəkləyir:

"Uzun illər ərzində Ermənistan tərəfi ilə danışırdıq, dialoq aparırdıq və vəziyyəti nizama salmağı təklif edirdik. Ermənistan faktiki olaraq Azərbaycanın 7 rayonuna nəzarət edirdi.

Deyirdik ki, gəlin, münasibətlərin normallaşmasına doğru gedək. İki Azərbaycan rayonu var ki, onlar böyük rayonlardır. Hansısa mərhələdə Azərbaycan tərəfi ilə razılaşacağıq, 5 rayonu verin. Onlar lazım deyil, mənasızdır və boşdur. Oradan adamlar gedib, onları saxlamağın mənası nədir? Qarabağla əlaqə üçün 2 rayon var, özü də onlar böyükdür. Lakin Ermənistan rəhbərliyi öz yolu ilə getdi. Məlum olduğu kimi, bu da bugünkü vəziyyətə gətirib çıxardı. Hesab edirik ki, qaçqınların qaytarılması ədalətli addımdır. Bu, bütövlükdə regionda vəziyyətin normallaşması istiqamətində yaxşı addım olardı".



Çünki əks təqdirdə Qarabağdakı rus sülhməramlılarının taleyi həll olunacaq

V.Putin əlavə edib: "Nizamlanma, sülh müqaviləsi məsələsinə gəlincə, mövqeyimiz ondan ibarətdir ki, sülh müqaviləsi lazımdır və biz sülh yolu ilə nizamlanmanın tərəfdarıyıq. Eləcə də sərhədlərin delimitasiyası və sərhəd məsələləri. Hansı variantı seçmək isə artıq Ermənistanın, Ermənistan rəhbərliyinin və erməni xalqının işidir. Biz heç nəyə məcbur etmək fikrində deyilik. Biz Ermənistana heç nə diktə etməyəcəyik. Erməni xalqı və ya Ermənistan rəhbərliyi hesab edirsə ki, sülh müqaviləsinin bütövlükdə Qarabağ üzərində Azərbaycanın suverenliyinin tanınmasını nəzərdə tutan Vaşinqton variantı seçilməlidir, buyursunlar, özləri bilərlər. Ermənistan rəhbərliyi hesab edirsə ki, Qarabağ gələcək sülh müqaviləsində nəzərə alınmalıdır, bu da mümkündür. Amma təbii ki, Azərbaycanla razılaşdırmaq lazımdır. Bu razılaşmaların qarşı tərəf - Azərbaycan üçün də məqbul olması lazımdır".

**Rusiyanın münaqişənin uzun müddət davam etməsini istədiyini deyən siyasi şərhçi Turab Rzayev "Şərq"ə bildirib ki, onlar heç bir halda yekun həllə maraqlı deyillər:** "Çünki Ermənistanla Azərbaycan arasında tam şəkildə sülh müqaviləsi imzalandıqdan sonra, Qarabağdakı Rusiya sülhməramlılarının müvəqqəti nəzarət etdiyi hissənin taleyi aydınlaşmalıdır. Bu da təbbi ki, əgər Ermənistanın bu əraziylə bağlı iddiası yoxdursa, o zaman Azərbaycanın suverenliyi qeyri-şərtsiz bərpa olunmalıdır. Məhz buna görə də Kreml Bakı ilə İrəvan arasındakı sülhün tezliklə bərqərar olmasını istəmir".

*Ekspert qeyd edib ki, Putin "Ermənistanı məcbur edə bilmərik" ifadəsi ilə Azərbaycana Rusiyanın imkanlarının məhdud olduğunu göstərmək istəyir:* "Yəni o bununla bildirməyə çalışır ki, biz sülh istəyirik, amma İrəvanı məcbur edə bilmirik. Digər tərəfdən isə Avropa İttifaqı, ABŞ və başqa vasitəçilər sülhü dəstəkləyir. Yəni Moskva Paşinyan hakimiyyəti və Qərbin razılaşdırdığı sülhə imkan vermir, Azərbaycanın istədiyi sülhə isə Ermənistanı razı sala bilmirəm deyir.

Əslində ortada sülh müqaviləsinin olmamasına dair yönəlmiş fəaliyyət var. Biz dəfələrlə bu barədə danışmışıq ki, Qarabağ münaqişəsi Qafqaza qoyulmuş saatlı bombadır.

Ümumilikdə isə Rusiya münaqişəni uzatmağa və Azərbaycanla Ermənistana maksimum təzyiq vasitələrini əlində saxlamağa çalışır".

**Nihat Müzəffər**

# İqtisadi nəfəslik

## İran Ermənistanı Azərbaycana qarşı, güclənən türk birliyinə qarşı diri tutmaq istəyir



**"Münaqişə dövründə Azərbaycanın Ermənistana tətbiq etdiyi iqtisadi blokadanı yaran əsas ölkə Rusiya olsa da, ikincilik İrana məxsus idi. İndi isə İran bu məsələdə birincilik iddiasını açıq şəkildə ortaya qoyur".**

Bu barədə deputat Aydın Hüseynov deyib. Parlament üzvü bildirib ki rəsmi səviyyədə elan olunub ki, iki ölkə arasında ticarət dövriyyəsinin 3 milyard dollara çatdırılması hədəflənir: "İran xarici işlər nazirinin Ermənistan səfəri zamanı ticarət dövriyyəsinin təkcə son ildə 40 faizdən çox artdığı qeyd edilib. Burada maraqlı məqam ondan ibarətdir ki, həmin artım nəqliyyat yükdaşımalarındakı rəqəmlərlə uzlaşmır. Yükdaşımalar ötənilki səviyyədə qalıb. Ermənistanın İqtisadiyyat Nazirliyi özü də buna izah verə bilmədiyinə görə, qalır bir ehtimal: İranın Ermənistana silah satması. İndi isə gələk 3 milyard dollarlıq ticarət dövriyyəsi hədəfinə. Bu, əslində, İranın Ermənistanda Rusiyanın yerinə göz dikməsi deməkdir. Əsas sual budur ki, İran Rusiyanın yerini ala bilərmi? Aydın məsələdir ki, sözügedən artım, əsasən, İranın ixracı üzərinə proqnozlaşdırılır. Amma Ermənistan alıcılıq qabiliyyəti aşağı olan kiçik bir bazardır. Yüksək tələbat artımı olmayacağına görə söhbət bazardakı oyunçuların dəyişməsindən gedə bilər. Yəni Rusiyanın payı İranın xeyrinə azalmalıdır. Amma Moskva buna imkan verəcəkmi?".

**A.Hüseynova görə, Rusiya Ermənistan iqtisadiyyatına o boyda ölü yatırımları ona görə etməyib ki, sabah İran gəlib onun üzərinə çöksün:** "Təbii ki, Rusiya iqtisadi cəhətdən səmərəsiz investisiyaları sırf Ermənistanın siyasi asılılığını gücləndirmək üçün edib. Özü də iqtisadiyyatın şah damarları hesab olunan nəqliyyat və energetika kimi sahələr demək olar ki, Rusiyanın əlindədir. Bəs İranın eyni "fədakarlığı" etmək üçün iqtisadi gücü varmı?! Təbii ki, Ermənistanla "ver yeyim" prinsipi üzərində qurulmuş iqtisadi münasibətlər Rusiya üçün əlavə yükdür. Elə ona görə də bu yükü İranla bölüşməyə müəyyən qədər icazə verir. Amma işin siyasi təsir mərhələsinə qalxması Kreml üçün qəbuledilməzdir. İş burasındadır ki, Ermənistan hazırkı vəziyyətdə İran və Rusiya üçün yalnız siyasi müstəvidə əhəmiyyətlidir. Bu ölkə səmərəli iqtisadi əməkdaşlıq, qarşılıqlı investisiya kimi məsələlərdə yararsızdır".

**Deputat qeyd edib ki, ianə, yardım və dilənçiliklə ayaqda qalan ölkənin hansısa xarici investisiyalar etməsi mümkün deyil:** "Üstəlik, bu ölkəyə qoyulan investisiyaların risk dərəcəsi də yüksəkdir. Ermənistanın onsuz da aşağı olan investisiya reytinqi Vətən müharibəsindən sonra daha da aşağı düşüb. Neçə ki, Azərbaycanla sülh müqaviləsi imzalanmayıb, Ermənistan iqtisadi baxımdan ən riskli ölkələr siyahısında qalacaq. Yəni İranın Ermənistanla iqtisadi əlaqələrin kökündə heç bir halda iqtisadi səmərəlilik dayanmır. İran Ermənistanı Azərbaycana qarşı, güclənən türk birliyinə qarşı diri tutmaq istəyir. Rusiyanın başının qarışıq olduğu bu ərəfələrdə Ermənistana iqtisadi nəfəslik olmaq istəyir".

**İsmayıl**



## Kiçik kreditlərin verilməsində problemlər var

### "O qədər sənəd istəyirlər ki, vətəndaş onu tapana, gətirənə qədər mövsüm bitir"

**"Kredit üçün o qədər sənəd istəyirlər ki, tapana kimi mövsüm bitir".**

*Bunu Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında deputat Rüfət Quliyev deyib. O bildirib ki, bizim kifayət qədər böyük tikililərimiz - binalarımız, aeroportlarımız, olimpiya komplekslərimiz var:* "4 il bundan əvvəl Lənkəran Beynəlxalq Hava Limanının icarəyə verilməsi təklifi ilə çıxış etmişəm. Amma mənim bu təklifim çox pis qarşılanıb. Hava limanını icarəyə götürmək üçün yerli investorlar olmasa da, Rusiyadan olan iş adamları bunda maraqlı idi. Ötən dəfə Mərkəzi Bankın sədri Milli Məclisdə idi. O zaman da təklif etmişdim".

**Rüfət Quliyev bankdan kredit götürmək sahəsində problemlərdən də söz açıb:** "Bankdan kredit götürmək üçün o qədər sənəd, arayış istəyirlər ki... Vətəndaş onu tapana, gətirənə qədər mövsüm bitir, heç nə də əkə bilmir. Kiçik kreditlər, 5 min manatdan 25 min manata qədər olan kreditlər sürətlə verilsin. Doğrudur, burada sahibkarın məsuliyyəti də nəzərə alınmalıdır".

**İsmayıl**

## Liderlər arasında razılaşmalara əməl edilməlidir

### Putin: "Bu sülhün yeganə yoludur"



**"Üçtərəfli bəyanatların həyata keçirilməsi, Ermənistan-Azərbaycan sərhədinin delimitasiyası və nəqliyyat kommunikasiyalarının açılması yolu ilə Azərbaycanla Ermənistan arasında münasibətlərin sabit şəkildə normallaşmasına nail olmaq mümkündür".**

"Report" xəbər verir ki, bunu Rusiya Prezidenti Vladimir Putin Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) növbədənkənar sammitində deyib.

Onun sözlərinə görə, Rusiya, Ermənistan və Azərbaycan liderlərinin imzaladığı birgə bəyanatların bütün müddəalarına tərəflərin ciddi əməl etməsi sülhə aparan yeganə mümkün və real yoldur: "Ermənistan-Azərbaycan sərhədinin delimitasiyası, nəqliyyat kommunikasiyalarının açılması, humanitar məsələlərin həlli ilə bağlı olan bu bəyanatların ardıcıl icrası ilə Ermənistanla Azərbaycan arasında münasibətlərin sabit şəkildə normallaşmasına nail olmaq mümkündür. Biz bunu Ermənistanın baş naziri ilə dəfələrlə müzakirə etmişik və belə başa düşürəm ki, o, bununla tam razıdır. Bəs bu həll yollarını necə tapmaq olar? Bu, asan deyil. Lakin həll yollarını yalnız bu istiqamətdə tapmaq mümkündür. Gələcəkdə bu, sülh sazişinin bağlanmasına imkan verəcək".

*O vurğulayıb ki, Moskva Bakı ilə İrəvan arasında münasibətlərin hərtərəfli normallaşmasına nail olmaq üçün əlindən gələni edir:* "Təbii ki, biz Rusiyaya yaxın dövlətlər arasındakı problemlərdən və ziddiyyətlərdən kənarda qala bilmərik və bunların sülh yolu ilə həllinə töhfə verməyə hər zaman hazırıq. Ümumiyyətlə, biz Cənubi Qafqazın sakit və davamlı inkişaf edən region olmasında maraqlıyıq".

# "Azərbaycan və Qazaxıstanın maraqları bir-birini tamamlayır"

## Elnur Eltürk: "Ölkəmiz Orta Asiya və Türkiyə arasında körpü rolunu oynayır"

**Oktyabrın 28-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov MDB Hökumət Başçıları Şurasının iclasında iştirak etmək üçün Qazaxıstan Respublikasına işgüzar səfəri çərçivəsində Astanada Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevlə görüşüb və iki ölkə arasında genişlənən əlaqələrə toxunub.**



*Azərbaycan-Qazaxıstan əlaqələrinin inkişafında belə görüşlərin önəminin böyük olduğunu deyən Türk Ağsaqqalları İctimai Birliyinin sədr müavini, diaspor üzrə araşdırmaçı-ekspert Elnur Eltürk "Şərq"ə bildirib ki, nə qədər çox görüşlər olarsa, yaxınlaşma bir o qədər sürətlənər:* "Bu gün hər iki qardaş ölkə əlaqələrin inkişafına xüsusi önəm verir. Son illər Qazaxıstan sürətli inkişaf xəttini tutub. Mərkəzi Asiyanın güclü dövlətlərindən birinə çevrilib. Qazaxıstanın xarici siyasətdə də müstəqillik xəttini müşahidə edirik. Biz bunu Prezident Tokayevin açıqlamalarında görürük. Nazarbayevdan sonra hakimiyyətə gələn Kasım-Jomart Tokayev Qazaxıstanın inkişaf etdirilməsi xəttini irəli aparmağa çalışır və buna nail olur. Deyərdim ki, Azərbaycan və Qazaxıstanın maraqları bir-birinə cavab verir. Azərbaycan dövləti isə Qazaxıstan hakimiyyətinin apardığı siyasi kursu izləyir. Çünki eyni dil, mədəniyyət və ortaq dəyərləri daşıyan iki qardaş ölkə əlaqələri inkişafını diqqətdə saxlamaya bilməzlər. Buna görə də hər iki ölkə əlaqələrin inkişafında maraqlıdırlar. Bu yaxınlarda, Prezident İlham Əliyevin səfərindən sonra Baş nazir Əli Əsədovun MDB Hökumət Başçıları Şurasının iclasında iştirak etmək üçün Qazaxıstan Respublikasına işgüzar səfəri çərçivəsində Astanada Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevlə görüşməsi, əlaqələrimizin inkişafına hansı səviyyədə önəmin verildiyini göstərir".

**E.Eltürk qeyd edib ki, tarix, zaman və geosiyasi vəziyyət bizim əlaqələrimizin inkişafını tələb edir:** "Hər iki ölkə qeyri-neft sektorunun inkişaf etdirilməsilə bağlı niyyətlərini bildirirlər. Qarşılıqlı ticarət dövriyyəsinin artması və beynəlxalq arenada birgə siyasi mövqeyin nümayiş etdirilməsi münasibətlərin qurulmasına təsir göstərir. Azərbaycan Xəzər dənizinin ticarət əlaqələrinin inkişafında gücləndirilməsində maraqlıdır. Bakı Beynəlxalq Dəniz Ticarət Limanına gələn yüklər asanlıqla Avropaya daşına bilir. Bu da Qazaxıstanın maraqlarına cavab verir. Nəzərə alsaq ki, dünya Trans-Xəzər marşrutunu ən uğurlu, məqbul variant sayır. Ona görə də Azərbaycan bu gün Orta Asiya və Türkiyə arasında körpü rolunu oynayır. Qazaxıstan isə Türk Birliyinin qurulmasında fəal iştirak edir. Hesab edirəm ki, bundan sonra işgüzar görüşləri davam edəcək".

**Nihat Müzəffər**

# “Missiya” təlatümlər gətirdi

## Cənubi Qafqazda vəziyyət gərginləşir



### “Hazırda regionda Qərblə Rusiya arasında ciddi rəqabət gedir”

**Ermənistanın Avropadakı havadarları Bakı ilə İrəvan arasında yekun sülh müqaviləsinin imzalanmaması üçün bütün variantları işə salıblar. İrəvan Rusiyanı bölgədən sıxışdırmaq, Avropadakı tərəfdaşlarını regiona gətirmək və ümumilikdə Cənubi Qafqazda vəziyyəti gərgin saxlamaq üçün Qərbdəki müttəfiqlərinin bütün ”təşəbbüs”lərini böyük məmnuniyyətlə qəbul etməkdədir.**

Praqa görüşündə Avropa İttifaqının mülki missiyasının sərhədə yerləşməsinə razılıq verən İrəvan, daha sonra ”ATƏT-in ehtiyacların qiymətləndirilməsi missiyası”nı regiona dəvət etdi. Hətta həmin missiya artıq Ermənistandadır və ilk patrul xidmətlərini də həyata keçiriblər. Xarici işlər naziri Ararat Mirzoyan missiyanın rəhbəri polkovnik Robert Arkadiuş Tkaçikinlə görüşdən sonra Ermənistan XİN məlumat yayıb ki, ATƏT missiyası sərhədə təşkilatın bütün iştirakçı ölkələrinin razılığı ilə gəlib. Lakin rəsmi Bakı vurğulayıb ki, missiyanın Azərbaycanla sərhədə gəlməsinə razılıq verilməyib. Azərbaycan ümumiyyətlə belə bir missiyanı tanımadığını bəyan edib. Maraqlıdır ki, Praqada keçirilən dördtərəfli görüş zamanı əldə olunmuş razılaşmaya əsasən Avropa İttifaqının sərhədə gələn mülki missiyası demək olar ki, ATƏT-in göndərdiyi missiya ilə eyni işi görəcək. Avropa İttifaqının missiyası Ermənistanla sərhədə Azərbaycanla razılıq əsasında gəldiyi üçün onu legitim saymaq olar. Amma ATƏT-in missiyasının Azərbaycanın razılığı olmadan hansı ”ehtiyacdan” bölgəyə gəldiyi şübhəlidir. Bu səbəbdən, missiya legitim sayıla bilməz.

**AĞ Partiya sədrinin müavini Əhəd Məmmədli ”Şərq”ə deyib ki, hazırda Cənubi Qafqaz regionunda Qərblə Rusiya arasında ciddi rəqabət gedir. Partiya təmsilçisi qeyd edib ki, hər iki tərəf Azərbaycan-Ermənistan məsələsinə sadəcə özünün nəzarətində olan problem kimi baxır:** ”2020-ci ilin sentyabr ayına, yəni 44 günlük Vətən müharibəsinin başlanmasına kimi münaqişə birbaşa Rusiyanın təsir dairəsində olub. Ancaq İkinci Qarabağ müharibəsi və Azərbaycanın qələbəsi vəziyyəti dəyişdi. İlk növbədə regiona Türkiyə gəldi. Müəyyən zaman sonra Qərb dairələri, ABŞ və Avropa İttifaqı dövriyyəyə girdi. Təbii ki, Qərbin fəallığı Rusiyanın qısqanclığına səbəb oldu. Missiya məsələsinə gəldikdə isə Azərbaycan torpaqları işğal altında olarkən dəfələrlə beynəlxalq missiya ilə bağlı Qərb ölkələrinə müraciətlər etmişdi. Rəsmi Bakının çoxsaylı müraciətlərinin hamısı qulaqardına vurulmuşdu. Amma 13-15 sentyabr hərbi əməliyyatlarından sonra Ermənistana tez-tələsik missiya göndərməyə qərar verdilər. Şübhə yox ki, İrəvanın sərhədə yaxın əraziyə Aİ və ATƏT-in beynəlxalq missiyalarını cəlb etməkdə məqsədi Azərbaycanın əl-qolunu bağlamaqdır. Məqsədləri Azərbaycan Ordusunun erməni təxribatçılarına layiqli cavab verməsinin, hərbi əməliyyatların keçirilməsinin qarşısını almaqdır. Azərbaycanın hərbi əməliyyatları məcburi xarakter daşıyır və erməniləri sülhə təşviq etmək məqsədi daşıyır”.

**Ə.Məmmədli bildirib ki, ermənilərin anladığı yeganə dil gücdür:** ”Ermənistan normal danışıqlardan, masa arxasında aparılan müzakirələrdən qaçır. Sülhə yaxınlaşmayan Ermənistan özü üçün sərhəddə yarana biləcək ”təhlükə”ni neytrallaşdırmaq düşüncəsi ilə beynəlxalq missiyanı bölgəyə gətirir. İrəvanın bu mövqeyinin Rusiya-Ermənistan arasında gərginlik yarada biləcəyi ehtimalı böyükdür. Kreml rəhbərinin ”Valday” klubunda çıxışı zamanı da Ermənistana yönəlik mesajlar var idi”.

**İsmayıl Qocayev**

# Əməkdaşlıq və dialoq genişlənir

## Şuşada Niyyət Bəyannaməsi imzalanıb



**Türk Dövlətləri Təşkilatına (TDT) üzv və müşahidəçi ölkələrin Audiovizual Media üzrə Tənzimləyici Orqanlarının birinci toplantısının iştirakçıları Şuşa şəhərinə səfərə gəliblər.**

Səfərin birinci hissəsində oktyabrın 27-də Bakıda keçirilən toplantıda razılaşdırılan Niyyət Bəyannaməsinin rəsmi imzalama mərasimi keçirilib.

Niyyət Bəyannaməsinə əsasən, tənzimləyici orqanlar arasında əməkdaşlığın və dialoqun genişləndirilməsi, audiovizual yayım və onun tənzimlənməsi ilə bağlı bilik, fikir və təcrübə mübadiləsinin həyata keçirilməsi, habelə ümumi mədəni miras hesab olunan audiovizual media ilə bağlı məsələlərin daimi müzakirə formatının yaradılması məqsədilə TDT-na üzv və müşahidəçi ölkələrin audiovizual media üzrə tənzimləyici orqanlarının Forumunun (Turkic Broadcasting Regulatory Authorities Forum - TBRAF) yaradılması təklifi ilə çıxış edilir və bununla bağlı TDT-na üzv və müşahidəçi ölkələrin Media və İnformasiya üzrə nazirlərinin və rəsmi şəxslərinin növbəti toplantısına müraciət olunur.

Səfərin ikinci hissəsində qonaqların Şuşa şəhərini gəzməsi, işğaldan azad olunandan sonra şəhərdə aparılan yenidənqurma və bərpa işlərinin gedişi ilə tanış olmaları nəzərdə tutulub.

# İranın Zahidan şəhərində etirazçılarla polis toqquşub

**İranın Sistan və Bəlucistan əyalətinin Zahidan şəhərində etirazçılarla polis arasında qarşıdurma baş verib.**

APA-nın Tehran bürosunun məlumatına görə, bu gün cümə namazından sonra Zahidan şəhərində etiraz aksiyası keçirilib.

Aksiyanı dağıtmaq üçün təhlükəsizlik qüvvələri cəlb olunub.

*Qeyd edək ki, bəzi qruplar Zahidanda cümə günü aksiyalar keçirməyə çağırış edib. Bu gün səhər saatlarından Zahidan şəhərində təhlükəsizlik tədbirləri gücləndirilib.*

# Daha bir təklif var

## Tıxac probleminin həlli indi hamını düşündürür

### “Kameraların sayı kifayət qədər olsa və ağına-bozuna baxmadan cərimə tətbiq olunsa sürücülərin 99 faiz avtobus zolağına girməz”

**Paytaxtın tıxac probleminin həllinə son günlərdə diqqət də artıb, təkliflər, ideyalar da. Yolların genişləndirilməsi, hərəkət zolaqlarının artırılması, parklanma yerlərinin çoxaldılması, şəxsi avtomobillərdən istifadənin azaldılması, tramvay xətti, troleybus, metrobus və sair və ilaxır.**

Nə qədər desəniz təklif var. Onlar arasında çətin görünəni, hətta mümkünsüz hesab ediləni də var. Amma yekdil fikir budur ki, ictimai nəqliyyatın normal hərəkətini təmin etmək mümkün olarsa, şəhərdə tıxaclar azalar. İnsanlar ictimai nəqliyyata üstünlük verər, rahat və sərfəli olanı seçərlər. Lakin bunu necə etməli? Nəqliyyat problemləri üzrə mütəxəssislər ictimai nəqliyyatın maneəsiz hərəkəti üçün yolun hərəkət hissəsində avtobuslara xüsusi zolaq ayrılmasını təklif edir. Nəqliyyat məsələləri üzrə ekspert Rauf Ağamirzəyev uzun müddətdir ki, bu təkliflə çıxış edir. Bir neçə gün öncə ekspert paytaxtın ”Ziya Bünyadov” prospektində avtobus zolağının çəkildiyi xəbərini foto ilə birgə paylaşmışdı. Mütəxəssiz öz mövqeyində qalır və avtobus zolağına digər nəqliyyat vasitələrinin daxil olmaması məqsədilə dünya təcrübəsində istifadə edilən xüsusi müşahidə kameralarının quraşdırılmasını təklif edir:

- Avtobus zolağının əsas qayəsi ictimai nəqliyyatın üstünlüyüdür. Həmin zolaqdan avtobusdan savayı ancaq operativ nəqliyyat vasitələri - polis, təcili yardım, yanğınsöndürən ehtiyac olarsa istifadə edə bilər. O yerdə ki, ”pik saatda digər şəxsi avtomobil də zolağa buraxılsın”, fikri səslənir, bilin ki, bu zaman ayrılmış avtobus zolağının mahiyyəti itir. ”Ziya Bünyadov” prospektiylə 7A,7B, 9, 11, 15, 24, 36, 60, 62, 67, 71, 85, 93, 85, 166, 199, 211 nömrəli avtobuslar hərəkət edir. Bu prospektdə avtobus zolağının çəkilməsi gün ərzində minlərlə vətəndaşın rahat və gecikmədən mənzil başına çatacağı deməkdir.



Sosial şəbəkədə paylaşım edən R.Ağamirzəyev dünyada tətbiq olunan təcrübəyə istinadən avtobus zolaqlarına nəzarət üçün quraşdırılan müşahidə kameralarını misal çəkib:

- Baxın, bu cihazın nömrə tanıma funksiyası var və bunun vasitəsilə avtobus zolağının tələbini pozan sürücülərə avtomatik cərimə yazıla bilər. Belə kameraların sayı kifayət qədər olsa və ağına-bozuna baxmadan cərimə tətbiq olunsa sürücülərin 99 faizi avtobus zolağına girməz. Amma qaydaların əməl olunmasına nəzarət edənlər bunları quraşdırmırlar. Görünür ki, avtobusların ləngimədən hərəkət etməsini istəmirlər.

**R.Ağamirzəyev Gürcüstanın paytaxtı Tbilisidə, Çavçavadze prospektində marşrutların sayının və maksimum sərnişin axını məlumatlarının təqdim edilən qrafik üzrə 2019 və 2022-ci illər üzrə müqayisəli təhlilini də verib:** ”Məlumatlara görə, bərpa olunan Çavçavadze prospektində ictimai nəqliyyat üçün hərəkət zolağı salınıb, nəticədə yolun ötürücülük qabiliyyəti 70 faiz, ictimai nəqliyyatda sərnişin axını isə 43 faizədək artıb. İctimai nəqliyyatda gözləmə vaxtının azaldılması, həmçinin avtobus və mikroavtobuslarla sərnişin axınının rahat şəkildə ictimai nəqliyyat üçün ayrılmış zolağa köçürülməsi hesabına yolun ötürücülük qabliyyəti də artıb”.

Tbilisidə bunu edə biliblərsə, bizdə niyə mümkün olmasın? Sadəcə, istək və necə deyərlər, hünər gərəkdir.

**Məlahət Rzayeva**




# Nə koronavirus təhlükəsi qalıb, nə pandemiya

## Elə bir ucdan xüsusi karantin rejimi uzadılır

**Yollar açılmadı. Xüsusi karantin rejimi yenə uzadıldı. Minlərlə insanın - anaların, ataların gözü yenə yollarda qaldı. Ustad Şəhriyar yadıma düşdü: "Bir uçaydım bu çırpınan elinən, ağlaşaydım uzaq düşən elinən, bir görəydim ayrılığı kim saldı..." Ardını yazmayaq. Təki Allah hər kəsə can sağlığı versin, doğmalara bir-birini görməyi nəsib etsin. Bu gedişlə ümid Allaha qalır. Yolu bağlayanlar nə sirdisə, açmaq istəmir. Yolu bağlayan koronavirusdu, COVİD-di, pandemiyadı, filan deyəcəklər. Bu nağıllara daha kimsə inanmır. Nə koronavirus təhlükəsi qalıb, nə pandemiya. Karantin rejimi quru sərhədlərdən savayı başqa heç bir yerdə, heç bir sahədə tətbiq olunmur. Dünya unudub artıq COVİD-i. Fəqət, ara-sıra ÜST xatırladır. Xatırlatmaqda fayda var, əlbəttə.**



Ehtiyatı əldən vermək olmaz. Zatən, ehtiyat tədbirləri də görüldü, əksəriyyət koronavirusa yoluxdu, sağaldı, peyvənd də olunduq.

Nə qaldı ki? Ölkədə bütün sahələr öz əvvəlki tərzinə qayıdıb. Əhalinin 99 faizi tibbi maskasız gəzir. Maska taxanlar qripə yoluxanlardır, ya da qripdən ehtiyat edənlər. Başqa heç bir məkanda - nə qapalı, nə açıq, qoruyucu maska tələbi qoyulmur. Toylar da hər zamankı qaydada, yaslar da. Xarici ölkələrə səfər edənlər də COVİD pasportu, 24 saat əvvəlki test nəticələrini təqdim edib "eyvallah", yola düşür. Eyni qaydanı quru sərhədləri ilə bağlı da tətbiq etmək niyə mümkün olmasın? Gürcüstana və ya Türkiyəyə quru sərhədləri keçməklə getmək istəyənlərdən də eyni qaydada sərhədkeçid məntəqəsində peyvənd arayışı, COVİD pasportu tələb etmək çətin olmasın gərək. Quru sərhədlərini qapalı saxlamaqla nə qazanır ölkə iqtisadiyyatımız ki, vətəndaşlara yol açılmır? Azərbaycanın 4 bir tərəfi soydaşlarımızın ən çox gedib-gəldiyi, doğmaları, ailə üzvləri olan ölkələrdir. İstər Rusiya olsun, istər Gürcüstan, Türkiyə. İrana da vətəndaşlarımız qazanc ardınca gedirdi, ya da həkimə. Lap olsun, gəzməyə, alış-verişə. Rahat gediş-gəliş insanların haqqıdır. Quru sərhədlərinin bağlı qalması nəinki soydaşımızın Gürcüstana, Türkiyəyə, Rusiyaya sərbəst gedişini əngəlləyir. Bu da o deməkdir ki, insanlar artıq 3 ildir doğmalarını, el-obalarını ziyarət edə bilmirlər. Azərbaycanın qərb bölgəsi, Şəmkirdən başlamış Ağstafa, Tovuz, Qazaxa qədər böyük bir ərazidə yaşayanların əksəriyyəti günlük qazancını məhz Türkiyə, Gürcüstana gedibgəlməklə əldə edirdi. 3 ildir insanlar bundan məhrum edilib. Qazancı bir kənara qoyaq, insanlar valideynlərinə, valideynlər övladlarına həsrət qalıb. Hələ bunun təhsil alanı da var. Aztəminatlı vətəndaşın təyyarə ilə səfər etməyə maddi imkanı çatmır. Tələbəyə heç sərf etmir təyyarə ilə gedib-gəlmək. Nəzərə alsaq ki, aztəminatlıların sayı daha çoxdur, deməli, quru yolla hərəkət etmək istəyənlərin sayı da çoxdur. Bir var, 1 nəfər təyyarə bileti alsın, bir də var, 10 nəfər avtobusla, ya da qatarla gedib-gəlsin. Hər halda bir təyyarə biletinin qiymətindən daha artıq qazanc əldə edilər. Yeni "xüsusi karantin rejimi" adı altında quru sərhədləri israrla qapalı saxlamaq kimə və niyə sərfəlidir, bir anlam vermək çətindir.

> Fuad İbrahimov: "Amma bir nəfər çıxıb açıq danışmır, izahat vermir ki, niyə quru sərhədləri açılmır"

> "Hava nəqliyyatı ilə səfərlər quru yolla gediş-gəlişi heç vaxt kompensasiya edə bilməz"

Qeyd edək ki, quru sərhədlərin açılmasının zəruriliyi Milli Məclisdə də bir neçə dəfə qaldırılıb, millət vəkilləri quru sərhədlərin bağlı qalmasının həm ölkə iqtisadiyyatına, həm də vətəndaşlara zərərini vurğulayıb, məsələnin tezliklə həll edilməli olduğunu bildiriblər.

**İqtisadçı-ekspert Fuad İbrahimov da "Şərq"ə açıqlamasında qeyd etdi ki, dünyanın əksər ölkələrində karantin qaydaları kəskin yumşaldılıb artıq. Azərbaycanda da karantin qadağaları, demək olar aradan qaldırılıb. Quru sərhədlərinin açılışı turizm sektorunun inkişafı baxımından da vacibdir. Quru sərhədləri heç olmasa mərhələli şəkildə açılsa, bu, ölkəyə gələn turistlərin sayının kəskin artmasına səbəb olacaq:**

- Statistika göstərir ki, Azərbaycana səfər edənlərin əksəriyyəti qonşu ölkələrdən gələnlər idi və onlar eyni zamanda quru sərhədlərdən istifadəyə üstünlük verənlər idi. Azərbaycana gələn turistlərin böyük faizi quru sərhədlərimizin olduğu ölkələrin payına düşür. Yəni Azərbaycana gələn hər 10 turistin 7-sinin vətəndaşlığı olduğu ölkə ilə quru sərhədlərimiz var. Bu baxımdan, quru sərhədlərin açılması ölkəyə daha çox turistin gəlməsinə səbəb olmaqla real sektora dəstək ola bilər.

**F.İbrahimov bildirdi ki, uzun müddətdir ölkədə həm yoluxma sayında, həm də sağalanlarla xəstələr arasındakı nisbətdə müsbət tendensiya, eləcə də ölüm sayında kəskin azalma müşahidə edilir:**

- Münbit şəraitin yaranmasına baxmayaraq quru sərhədlərin qapalı qalmasının tutarlı bir səbəbi varsa, bu, mütləq açıqlanmalıdır. Amma tutarlı bir səbəb göstərilmir, bir nəfər çıxıb açıq danışmır, izahat vermir ki, niyə quru sərhədləri açılmır. Elə bir ucdan xüsusi karantin rejimi uzadılır. Niyə, nə səbəbə? Səbəb pandemiya ola bilməz. Pandemiya hətta davam etsəydi belə, peyvəndləmə kampaniyasının uğurla aparılması təhlükələri minimuma endirir. Başqa səbəb varsa, desinlər, əhali də bilsin. 3-cü ildir ki, insanlar qazanc yerlərini itirir. Doğmalarını görə bilmirlər. Səyahətlər onsuz da var. Təyyarə ilə səyahət edənlər onsuz da hara istəyirlər gedirlər. Hərəkət edə bilməyənlər aztəminatlı insanlardır. Quru sərhədlərin bağlı qalması vəziyyəti dəyişmir. Səyahətə çıxmaq istəyənlər Türkiyəyə təyyarə ilə uçub oradan da hara istəyirlər quru yolla keçirlər. Sərhədləri qapalı saxlamaq direnişi anlamsızdır. Buna məntiqi bir izahat vermək mümkün deyil. Yenə deyirəm, bizim bilmədiyimiz başqa bir səbəb varsa, açıqlasınlar. Əsaslı səbəb göstərmədən, əsaslı izahat vermədən quru sərhədləri qapalı saxlamaqda davam edirlər.

*F.İbrahimov qeyd etdi ki, bu məsələdə görünür, qonşu dövlətlərin də siyasi iradəsi vacibdir:*

- Bu məsələ birtərəfli qaydada həll edilə bilməz. Amma biz bilmirik, qonşu dövlətlərin mövqeyi necədir? Məsələni uzadan, yubadan hansı dövlətdir? Ola bilməz ki, 4 ölkənin 4-ü də, quru sərhədlərin açılmasına qarşı çıxsın. Çünki bu vəziyyət heç bir dövlətə, əslində sərfəli deyil. Əksinə, bütün qonşu dövlətlərə xeyirdir. Həm dövlət miqyasında iqtisadi mənfəət baxımından, həm də vətəndaşların mənfəəti baxımından. Tutalım, hazırda Rusiyanın məlum problemləri var, müharibə şəraitidir və sair. Hərçənd bu məsələnin Azərbaycanla əlaqələri baxımından həlli mümkün görünür. Amma Gürcüstan və Türkiyədə hazırda stabil vəziyyətdir. Məncə, quru sərhədlərin açılmasına əsaslı bir manea yoxdur. Amma bu məsələ vətəndaşları qıcıqlandırır.

*F.İbrahimov bildirdi ki, hava nəqliyyatı ilə səfərlər quru yolla gediş-gəlişi heç vaxt kompensasiya edə bilməz:*

- Birincisi, təyyarələrin sayı azdır, tələbat ödəniləcək sayda təyyarə reysləri təşkil etmək mümkün deyil. İkinci, təyyarə biletləri çox bahadır. Bir təyyarə biletinin qiymətinə 10 nəfər avtobusla, şəxsi avtomobillə qonşu ölkələrə gedib-gələ bilər. Qiymət, xərclər arasındakı fərq o qədər böyükdür ki, təyyarə reyslərinə üstünlük verilməsini düşünmək belə absurddur. Quru sərhədlər açılsa, sərhədyanı bölgələrdə də hərəkətlilik yaranacaq, iqtisadi vəziyyət normallaşacaq. Digər məsələ, ölkə daxilində dəmiryolunun fəaliyyətsiz qalmasıdır. Sərnişin qatarlarını hərəkətə gətirmək lazımdır. Onsuz da vətəndaşlar avtobuslarla bölgələrə səfər edir. Qatarla da getsinlər. Avtobusda yoluxma ehtimalı sıfırdır, qatarlarda 100 faiz?! Elə işlər görülür ki, bunlara bir anlam vermək olmur. Bu məsələləri rahat bir şəkildə həll etmək olar. Elektron portallar vasitəsilə vətəndaşlar qeydiyyata düşsün, peyvənd sertifikatları qeydə alınsın. Bir də ki, quru sərhədlərlə yükdaşımalar onsuz da həyata keçirilir. Yükdaşımalar zamanı yaranan sıxlıq heç əhalinin gediş-gəlişi zamanı yaranmır. Hansı tərəfdən baxsan quru sərhədlərin açılması əlverişlidir, lazımdır. Niyə müddəti hər dəfə uzadırlar?!.

**Məlahət Rzayeva**



# "Bakıda velosipedlərin hərəkəti üçün şərait yoxdur"

## Nazir müavini: "Qanunvericiliyə dəyişiklik üçün layihə hazırlamışıq"

**"Təəssüf ki, biz hələ də velosipedlərə əyləncə vasitəsi kimi baxırıq, nəqliyyat vasitələrindən biri kimi baxmırıq".**

"APA-Economics" xəbər verir ki, bunu rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rəhman Hümmətov deyib. Onun sözlərinə görə, Bakıda velosipedlərin hərəkəti üçün də şərait yoxdur.

"Bəzən biz reytinq dalınca qaçırıq ki, Bakıda filan kilometr uzunluqda velosiped yolları çəkilib. Nəqliyyat Nazirliyinin qarşısına velosiped yolu çəkilib, hərdən pəncərədən baxıram, bir ildən artıqdır ki, bir dəfə də olsun üzərində velosipedlə gedən görməmişəm. Demək ki, düzgün layihələndirilməyib. Hazırda biz velosiped və skuterlərlə bağlı qanunvericiliyə dəyişiklik üçün layihə hazırlamışıq. Onu Daxili İşlər Nazirliyinə təqdim etmişik, onlar da bəyəniblər. Bundan sonra, velosiped yollarının düzgün layihələndirilməsi üçün mütəxəssis cəlb olunmalıdır. Velosipedin nəqliyyat vasitəsi kimi populyar olması üçün hələ görüləcək işlər çoxdur.", - deyə nazir müavini qeyd edib.

# Zaqatalada yeni doğulan körpə ölüb

**TƏBİB Zaqatalada yeni doğulan körpənin ölümü ilə bağlı məlumat açıqlayıb.**

TƏBİB-dən verilən məlumatda bildirilib ki, 41-42 həftəlik hamilə olan 1998-ci il təvəllüdlü G.Z. 25 oktyabr tarixində saat 12:23 radələrində Zaqatala Rayon Mərkəzi Xəstəxanasının Doğum şöbəsinə daxil olub. Daxil olarkən ananın vəziyyəti kafi qiymətləndirilib. 26 oktyabr tarixində saat 07:35 radələrində təbii doğuş başa çatıb. Doğuş prosesi ağır keçib və yenidoğulmuşun doğulmasında ləngimə qeydə alınıb. Doğuşdan sonra körpəyə doğuş zamanı ağır asfiksiya diaqnozu qoyulub. Vəziyyəti ağır qiymətləndirilən körpə Bakı şəhərinə təxliyə edilib. Tibb müəssisəsinə yerləşdirilmədən körpədə ölüm halı qeydə alınıb.

# 1 nəfər vəfat edib

## Daha 49 yeni yoluxma faktı qeydə alınıb

**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 49 yeni yoluxma faktı qeydə alınıb, 40 nəfər müalicə olunaraq sağalıb.**




Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslər arasında 1 nəfər vəfat edib.

Azərbaycanda indiyədək ümumilikdə 823 149 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 812 889 nəfər müalicə olunaraq sağalıb, 9 943 nəfər vəfat edib, aktiv xəstə sayı 317 nəfərdir.

*Ölkədə son sutka ərzində 1 766, hazırkı dövrədək isə 7 315 522 test aparılıb.*

Şərq Müstəqil ictimai-siyasi qəzet


# 10 ildən sonra ilk görüş...

## İsrail Türkiyəni bölgənin qlobal aktoru kimi görür



**Ankarada İsrailin Müdafiə naziri Benni Qantz ilə Türkiyənin Milli müdafiə naziri Hulusi Akar arasında görüş keçirilib. Bu, Türkiyə ilə İsrail müdafiə nazirləri arasında 10 ildən sonra baş tutan ilk görüşdür. Qantz Türkiyəni önəmli tərəfdaş kimi gördüklərini, təhlükəsizlik məsələlərində əməkdaşlığa hazır olduqlarını bəyan edib.**

O, 10 il əlaqələrin olmamasını təəssüflə vurğulayıb. Həmçinin, Türkiyə tərəfinə ölkə ərazisində İsrail vətəndaşlarına qarşı planlanan təhdidlərin qarşısını aldığı üçün təşəkkürünü bildirib: "Prezident Ərdoğan, nazir Akar və təhlükəsizlik orqanlarına təşəkkür edirik. İnanıram ki, günahsız dinc əhaliyə qarşı terroru dəstəkləməklə və ya həyata keçirməklə regionlarımızda sabitliyi pozanların təsirini azaltmaq üçün birlikdə daha çox şey etmək olar. Bu, Fələstin mövzusuna da aiddir və mən əminəm ki, ölkələrimiz arasında daha dərin müdafiə əlaqələri bu sahədə də inkişafa müsbət təsir göstərə bilər". Qantz bəyan edib ki, İsrail Türkiyəni iqtisadi sahədə, müdafiə sahəsində və bütün regionun sabitliyinin təmin edilməsində əlaqələrimizi inkişaf etdirə biləcəyimiz qlobal aktor kimi görür. O vurğulayıb ki, münasibətləri inkişaf etdirdikcə fikir ayrılıqlarını aradan qaldırmağın yolu tapılacaq. Ölkəsinə qayıdarkən hava limanında jurnalistlərin suallarını cavablandıran Qantz səfəri ilə təhlükəsizlik sahəsində əməkdaşlığa qapının açıldığını bildirib.

**"Beynəlxalq Münasibətlər və Diplomatiya**

### "İki dövlət bundan sonra vəziyyəti gərginləşdirəcək məqamların üzərinə getməyəcək"

**Araşdırmaları Mərkəzi"nin rəhbəri Samir Hümbətov "Şərq"ə deyib ki, on il ərzində Türkiyə-İsrail əlaqələri çox aşağı səviyyədə idi. Analitik vurğulayıb ki, belə halda iki ölkə arasında münasibətlərin gərginləşməsi regionun digər dövlətləri üçün sərfedici sayılırdı:** "Hər ölkə bu gərginlikdən öz maraqları çərçivəsində istifadə etməyə çalışırdı. Lakin İsrail və Türkiyənin əməkdaşlığının uzun tarixi var. İki ölkənin əlaqələri 1948-ci ildə, yəni İsrail dövləti yaranan gündən formalaşmağa başlayıb. İsraili tanıyan ilk müsəlman dövləti məhz Türkiyə olub. Zamanla iki ölkə arasında sıx əməkdaşlıq formalaşdı. 1990-cı ildə ikili münasibətlər ən yüksək səviyyəyə çatdı. Hətta Türkiyə ordusunun moderinaziyası məsələsində İsrailin böyük payı və rolu var idi. Fələstin məsələsinə görə iki dövlət arasındakı əlaqələrdə axsamalar və problemlər yaşanmağa başladı. Qüds şəhərinin İsrailin nəzarətinə keçməsi, müsəlmanların öldürülməsi kimi hadisələr dini faktor baxımından Ankara tərəfindən prinsipial məsələ kimi qəbul olundu. Lakin son dönəmlərdə, xüsusən İkinci Qarabağ müharibəsindən sonra Fələstinin Türkiyə və Azərbaycanla bağlı qəbuledilməz mövqeyi, işğalçı Ermənistanı dəstəkləməsi Ankaranın da məsələyə yanaşmasını dəyişdi. Bundan sonra tədricən İsrail-Türkiyə arasındakı buzlar da əriməyə başladı. Təl-Əviv də zamanla başa düşdü ki, Türkiyə çox etibarlı və lazımlı strateji tərəfdaşdır. Yəni itiriləsi ölkə deyil. Ona görə də münasibətlərin bərpası istiqamətində addımlar atılmağa başlandı".

*S.Hümbətov vurğulayıb ki, İsrail Prezidenti İshaq Hersoqun və nazirlərin Türkiyəyə səfərləri, XİN başçısı M.Çavuşoğlunun İsrailə səfəri əlaqələrin ikinci mərhələsini başlatdı:* "Düzdür, Türkiyə yenə də prinsipial mövqeyini saxlasa da, qardaş ölkənin birinci qayəsi bölgədə sülhü bərqərar etmək, stabilliyi saxlamaqdır. Sadəcə, Türkiyə istəyir ki, İsrailə verilən haqlar Fələstinə də verilsin, onların da ayrıca dövləti qurulsun və s. Ola bilər, indiki halda Türkiyə-İsrail münasibətləri birtərəfli inkişaf etsin. Yəni siyasi-iqtisadi, hərbi və təhlükəsizlik üzrə əməkdaşlıqlar olacaq, ancaq Fələstin məsələsi gələndə hər iki dövlət söhbətin üzərindən yumşaq formada keçəcək. İki dövlət bundan sonra vəziyyəti gərginləşdirəcək məqamların üzərinə getməyəcək. Yaxın Şərqdə Türkiyəyə qarşı koalisiya qurmağa cəhd edənlər var. Düşünürəm ki, bunun qarşısını almağın ən yaxşı yolu İsrail dövləti ilə münasibətləri qurmaq və inkişaf etdirməkdir. Nəzərə alaq ki, Türkiyə-İsrail münasibətlərinin normallaşması Azərbaycana da təsir edən amillərdəndir".

**İsmayıl Qocayev**

# "5-10 erməni dığasına görə xor kapellası yaradırlar"

## Elman Məmmədov: "Bəs 4 minə yaxın Azərbaycan vətəndaşının taleyi sizi niyə maraqlandırmır?"



**Azərbaycan Ermənistana 10 hərbçinin meyitini təhvil verib. Bu barədə Ermənistan Müdafiə Nazirliyinin mətbuat katibi Aram Torosyan məlumat verib.**

*O əlavə edib ki, hazırda meyitlərin kimliyinə dair məlumat yoxlanılır. Azərbaycanın öz humanist mövqeyini həmişə bəyan etdiyini deyən millət vəkili Elman Məmmədov "Şərq"ə bildirib ki, rəsmi Bakı sözünün arxasında durduğunu hərəkətləri ilə də təsdiq edir:*

"Ancaq 4 min nəfərə yaxın itkin düşmüş Azərbaycan vətəndaşının taleyi barəsində 1-ci Qarabağ savaşından bu günə qədər nə beynəlxalq qurumlar, nə də Ermənistan tutarlı cavab verib. Deyəsən, heç vermək fikrində də deyillər. Maraqlısı odur ki, 5-10 nəfər erməni dığasına görə bütün dünya birliyi bir-birinə qarışır və ağız-ağıza verib xor kapellası yaradırlar ki, Azərbaycan əsirlikdə olan erməniləri qaytarmalıdır. Burdan beynəlxalq qurumlara və Fransa kimi ermənipərəst dövlətlərə üzümü tutub deyirəm ki, yaxşı, 5-10 nəfər erməni üçün narahatlıq keçirirsiz, bəs 4 minə yaxın Azərbaycan vətəndaşının taleyi sizi niyə maraqlandırmır? Onların haqsızlığı və tərəfkeşliyi isə burada özünü qabarıq şəkildə büruzə verir".

**Parlamentari bildirib ki, mina xəritələrinin düzgün verilməməsinə görə də Ermənistana bir söz deyən yoxdur:** "Paşinyan MDB ölkələrinin tədbirində mina xəritələri məsələsinə toxundu. Lakin orda da saxtakarlıq edərək dedi: "Bizdə olan bütün dəqiq xəritələri Azərbaycana vermişik". Lakin bunların hamısı yalandır. Bizə saxta xəritələr verilib. Ona görə də müharibə bitəndən bu yana Azərbaycanın onlarla mülki şəxsi minaya düşərək qurban olublar. Digər tərəfdən bu mina sahələrinin təmizlənməsi üçün heç bir beynəlxalq qurum nə maddi, nə də texniki cəhətdən Azərbaycana kömək edir. Ancaq onlar Ermənistan ərazisində bu işləri apardığını bildirirlər. Bütün bunlar isə dünyanın ikili standartlarla idarə olunmasının bariz sübutudur".

**Nihat**



# Putin də fərqindədir

## Tural İsmayılov: "Rusiya indiki məqamda Türkiyəyə böyük ehtiyac duyur"

**"Rusiya Prezidenti Vladimir Putin türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğanı təqdir edib.**

**Putin Ərdoğanı çətin, lakin ardıcıl və etibarlı tərəfdaş adlandırıb:** "Ərdoğan güclü liderdir və öz ölkəsinin maraqlarından çıxış edir. O, heç vaxt imkan verməz ki, kimsə boynuna oturub onu özgə maraqlarını rəhbər tutmağa məcbur etsin".

Siyasi şərhçi Tural İsmayılov Rusiya liderinin Türkiyə rəhbəri barədə söylədiyi fikirlərə münasibət bildirib. "Şərq"ə danışan analitikin qənaətincə, Türkiyə digər NATO ölkələrindən fərqli olaraq, Rusiya-Ukrayna savaşında birmənalı şəkildə anti-Rusiya fəaliyyəti həyata keçirmir: "Türkiyənin vasitəçiliyi ilə bir çox qlobal problemlər həllini tapır. Rəsmi Ankaranın obyektiv və qərəzsiz mövqeyi nəticəsində Ukrayna taxılının dünyaya daşınma prosesi baş verir.

Türkiyə ilə Rusiya arasında dünya coğrafiyasında bəzən fikir ayrılıqları yaşanır. Lakin konseptual məsələlərdə ortaq addımlar atmağı da bacarırlar.

Rusiya və Türkiyə xüsusilə enerji təhlükəsizliyi ilə bağlı mövzularda əməkdaşlıq etməyə çalışır. R.T.Ərdoğan Türkiyəni regional liderdən qlobal siyasi gücə çevirib.

V.Putin də fərqindədir. Digər NATO üzvlərinin Türkiyə əleyhinə apardığı manipulyasiyalar, Qərbin uzun müddət Türkiyə dövlətini və iqtidarını gözdən salmaq üçün reallaşdırdığı siyasi basqılarda türk müdafiəsini formalaşdıra bilib. Bütün faktorlar Türkiyənin reytinqinin yüksəlməsinə, dünyadakı siyasi proseslərdə rolunun artmasına şərait yaradır. Rusiya hərtərəfli basqılar altındadır.

Yeganə NATO üzvü Türkiyədir ki, Rusiya ilə iqtisadi-siyasi əlaqələrini heç bir formada bloklamır. Rusiya indiki məqamda Türkiyəyə böyük ehtiyac duyur".

**Aygün Tahir**

# Tezliklə sülh olmayacaq

## Putinin sözü ilə əməli üst-üstə düşmür

**"Rusiya Prezidenti Vladimir Putin "Valday" forumunda çıxış edib. O, Ermənsitanın Azərbaycanın Qarabağ üzərində suverenliyini tanımağa hazırlaşdığına eyham vurub və buna mane törətməyəcəklərini bildirib".**

**Bunu "Şərq"ə açıqlamasında millət vəkili Sahib Alıyev Rusiya Prezidenti Vladimir Putinin "Valday" forumundakı çıxışına münasibət bildirərkən deyib.**



Parlamentari qeyd edib ki, Putinin "buyursunlar" deməsi ilk baxışda xeyirxah bir yanaşma təsiri bağışlayır: "Amma burada unudulur ki, Rusiyanın Krasnodar üzərində suverenliyi nə deməkdirsə, Azərbaycanın Qarabağ üzərində suverenliyi də o deməkdir.

Birincinin öz torpaqları üzərində suverenliyini hayların buna razı olub-olmadıqları və Azərbaycanın da onu dəstəkləyib-dəstəkləmədiyi müəyyənləşdirmədiyi kimi, ikincinin haqlarını da, hayların istəkləri və Rusiyanın da bunun dəstəkləyib-dəstəkləmədiyi müəyyənləşdirə bilməz.

Çünki hər dövlətin öz torpaqları üzərində suverenliyi beynəlxalq normalarla təsbit olunur və burada qonşunun istəyi, hansısa gücün onu dəstəkləyib-dəstəkləməməsi heç bir rol oynaya bilməz.

Bundan başqa bir tərəfdən şərtlə də olsa, Azərbaycanın Qarabağ üzərində suverenliyinə qarşı cıxılmayacağı deyilir, digər tərəfdən Xankəndidə Rusiya hərbi kontingentinin müvvəqqəti, amma tam nəzarəti altında yaşayanlara reinteqrsiya əleyhinə aksiya keçirmək tapşırığı verilir. Yəni orada Moskva üçün daha əlverişli "hakimiyyət" dəyişiklikləri edilirsə, burada sözlə əməlin üst-üstə düşmədiyi üzə çıxır.

Görünür ki, Rusiyanın Azərbaycanla Ermənistan arasında tezliklə sülhün yaranamasında maraqlı olması, sözügedən forumda "Nord Stream-1" qaz kəmərini guya Qərbin özünün partlatması və Ukrayna haqqında deyilənlər qədər doğrudur".

**Nihat Müzəffər**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

# Qarabağ "yaşıl enerji" zonasına çevriləcək

## Azərbaycan müasir dövrün əsas hədəflərindən birinə doğru irəliləyir

**Dünyada ənənəvi enerji mənbələrindən "yaşıl enerji"yə keçid müasir dövrün əsas hədəflərindən biridir. Azərbaycanda da bu sahəyə xüsusi diqqət göstərilir. 2030-cu ilədək elektrik enerjisi qoyuluş gücündə bərpa olunan enerji mənbələrinin payının 30 faizə çatdırılması, işğaldan azad olunmuş ərazilərin "Yaşıl Enerji" Zonasına çevrilməsi ölkəmizin enerji siyasətində bir nömrəli prioritetdir.**

Özünü etibarlı və mühüm neftqaz tədarükçüsü kimi təsdiq etmiş Azərbaycan, beynəlxalq dekarbonizasiya səylərinə töhfə verməklə "yaşıl" enerjini də fəal şəkildə inkişaf etdirir. Bu gün bütün ölkə ərazisində xarici kapitalın iştirakı ilə alternativ enerji ilə bağlı mühüm layihələr həyata keçirilir. Bunun bariz nümunəsi kimi "Masdar" şirkətinin həyata keçirdiyi 230 meqavatt gücündə Qaradağ günəş elektrik stansiyasının və "ACWA Pover" şirkəti tərəfindən tikilən Xızı-Abşeron külək elektrik stansiyası layihəsini göstərmək olar. Bundan əlavə, bp-nin yaxın vaxtlarda azad edilmiş Cəbrayılda "Şəfəq" günəş elektrik stansiyası tikəcəyi gözlənilir.

Bu günə kimi işğaldan azad edilmiş bütün ərazilərdə elektrik enerjisi təchizatı bərpa olunub. İlkin təhlilə görə, burada bərpa olunan enerji potensialı on min meqavat təşkil edir. Prezident İlham Əliyevin "Azərbaycanın azad edilmiş ərazilərində "yaşıl enerji" zonasının yaradılması ilə bağlı tədbirlər haqqında" Sərəncamı işğaldan azad edilmiş ərazilərdə bərpa olunan enerji mənbələrindən səmərəli istifadəni nəzərdə tutur.

Qarabağda enerji sektorunda həyata keçirilən layihələr işğaldan azad edilmiş ərazilərin vacib enerji qovşağına çevrilməsi istiqamətində mühüm investisiyalardır. Bu baxımdan Azərbaycan Prezidenti İlham Əliyevin və Birinci xanım Mehriban Əliyevanın bu ərazilərə səfəri zamanı Cəbrayıl və Qubadlıda vacib enerji obyektlərinin açılışını xüsusi qeyd etmək lazımdır.

Oktyabrın 19-da Cəbrayılda "Azərişıq" ASC-nin 35 kilovoltluq yarımstansiyanın və Rəqəmsal İdarəetmə Mərkəzinin təməlqoyma mərasimi olub. Rəqəmsal idarəetmə mərkəzi 110/35/10 kilovoltluq "Cəbrayıl" yarımstansiyasından enerji alacaq. Mərkəz Cəbrayıl şəhərinin elektrik enerjisinə olan tələbatının bir hissəsini təmin etməklə yanaşı, tikintisi planlaşdırılan digər enerji mərkəzlərini də rəqəmsal platforma vasitəsilə idarə etməyə imkan verəcək. Rəqəmsal İdarəetmə Mərkəzində tətbiq olunacaq müasir dispetçer idarəetmə sistemi elektrik enerjisinin real vaxt rejimində istehlakçılara çatdırılması məsələsində abunəçi məmnunluğunu təmin edəcək. Cəbrayılda da 330/110 kilovoltluq qovşaq yarımstansiyasının tikintisi sürətləndirilir ki, bu da Qarabağ və Şərqi Zəngəzur bölgələrinin elektrik enerjisi ilə fasiləsiz təchizatını təmin edəcək, həyata keçirilən meqa layihələrin tələbatını ödəyəcək, yarımstansiyalar vasitəsilə Cəbrayıl-Naxçıvan-Ağrıya (Türkiyə) və oradan isə Türkiyənin enerji sistemi vasitəsilə Avropa enerji bazarlarına əlavə çıxış imkanı, ixrac imkanlarını artırmaq, uzun illərdən sonra Naxçıvan Muxtar Respublikasını Azərbaycanın ümumi enerji sisteminə birləşdirmək imkanı əldə edəcək.



### Azərbaycan Avropa ölkələrinin böyük maraq göstərdiyi elektrik enerjisi ixracatçısına çevriləcək

Bundan başqa, 330 kilovoltluq "Cəbrayıl" yarımstansiyasının tikintisi İranla birgə inşa olunan "Xudafərin" və "Qız Qalası" su elektrik stansiyalarında, eləcə də alternativ və bərpa olunan enerji mənbələrində və kiçik su elektrik stansiyalarında istehsal olunan enerjinin Azərbaycanın ümumi enerji sisteminə ötürülməsi üçün vacibdir.

Qubadlı şəhərində tikiləcək Rəqəmsal İdarəetmə Mərkəzi isə 110/35/10 kilovoltluq "Qubadlı" yarımstansiyasından enerji alacaq. Mərkəz Qubadlı şəhərinin elektrik enerjisinə olan tələbatının bir hissəsini təmin etməklə yanaşı, tikintisi planlaşdırılan digər enerji mərkəzlərini də rəqəmsal platforma vasitəsilə idarə etməyə imkan verəcək. Rəqəmsal İdarəetmə Mərkəzində tətbiq olunacaq müasir dispetçer idarəetmə sistemi real vaxt rejimində istehlakçıların elektrik enerjisi ilə təchizatı məsələsində abunəçi məmnunluğunu təmin edəcək.

35/0,4 kilovoltluq "Qubadlı şəhəri" yarımstansiyası və Rəqəmsal İdarəetmə Mərkəzini 35/0,4 kilovoltluq "Cəbrayıl şəhəri" yarımstansiyası və "Hadrut" qovşaq yarımstansiyası ilə birləşdirən xətlərin yaradılması ilə dairəvi təchizat sistemi yaradılacaq. Eyni zamanda, 35/0,4 kV-luq "Qubadlı şəhəri" və "Cəbrayıl şəhəri" yarımstansiyaları arasında ikidövrəli kabel xəttinin çəkilməsi Cəbrayıl və Qubadlı şəhərləri arasında qarşılıqlı enerji mübadiləsini təmin edəcək.

Bundan əlavə, Zəngilanda Arximed turbini tipli su elektrik stansiyası istifadəyə verilib. Arximed qurğusunun digər enerji istehsal edən sistemlərlə müqayisədə böyük üstünlüyü ondan ibarətdir ki, o, təzyiqsiz sudan enerji hasil edə bilir, quraşdırılması asandır və iqtisadi baxımdan qənaətlidir. Üç generatoru olan stansiya Ağalı kəndinin elektrik enerjisinə olan tələbatını tam ödəyə biləcək.

Bütün bu və Azərbaycanda, xüsusən də Qarabağda həyata keçirilən digər mühüm layihələr ölkəmizi Avropa ölkələrinin böyük maraq göstərdiyi elektrik enerjisi ixracatçısına çevirməyə imkan verir. Xüsusilə Ruminya Azərbaycandan Gürcüstan vasitəsilə elektrik enerjisinə çıxış əldə etmək üçün Qara dənizin dibi ilə marşrut çəkilməsini təklif edir.

Bu layihə çərçivəsində Gürcüstanla Ruminya arasında 1 195 kilometr uzunluğunda min meqavat elektrik ötürücü xəttinin çəkilməsi və rəqəmsal birləşdirici kabelin quraşdırılması nəzərdə tutulur. Bu məqsədlə Dünya Bankının dəstəyi ilə 2023-cü ilin sonuna qədər layihənin texniki-iqtisadi əsaslandırılmasının hazırlanması planlaşdırılır. Hazırda Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında dördtərəfli əməkdaşlıq formatının yaradılması məsələsi müzakirə olunur.

Amma bu, Azərbaycandan Avropaya "yaşıl" enerjinin nəqli üçün təklif olunan yeganə marşrut deyil. İkinci marşrut Naxçıvandan keçən Azərbaycan-Türkiyə-Avropa Enerji Dəhlizidir, üçüncü marşrut isə Gürcüstan və Türkiyədən keçəcək.

Bütün bunlar "yaşıl" dəhliz yaratmağa imkan verəcək, Azərbaycandan elektrik enerjisinin ixracı bazarını şaxələndirəcək, ölkənin tədarükçü kimi rolunu artıracaq və Xəzər regionunun Avropa və Qara dəniz regionu ilə inteqrasiyasını gücləndirəcək. Beləliklə, Azərbaycanın "yaşıl" enerjidən istifadə etməklə Avropaya enerji təchizatı mənbələrinin şaxələndirilməsi üçün böyük perspektivləri var. Növbəti illərdə ölkədə elektrik enerjisi istehsalının dinamikası artıq bərpa olunan enerji mənbələrinə əsaslanacaq. Bunun üçün zəngin potensial, bərpa olunan enerjinin inkişafı sahəsində dövlət siyasətinin prioriteti, yeni qanunvericilik bazası və xarici sərmayə kimi bütün zəruri şərait var.

### Bərpaolunan yeni enerji formalarına keçidin iqtisadi əhəmiyyəti çox böyükdür

**Azərbaycanda son dövrlər "yaşıl enerji"yə keçidlə əlaqədar sistemli işlər görüldüyünü vurğulayan iqtisadçı-ekspert Eldəniz Əmirovun sözlərinə görə, "ağıllı şəhər" və "ağıllı kənd" layihələrinin icrasına başlanması, Zəngilanın Ağalı kəndində bu layihənin başa çatmaq üzrə olması və kənd konsepsiyasının icrasında məhz yaşıl enerjidən geniş istifadə olunması, o cümlədən işğaldan azad olunmuş ərazilərdə müxtəlif çaylar üzərində 13 avtomatlaşdırılmış hidroloji stansiyanın yaradılması ilə bağlı göstərişin verilməsi orada hidroloji enerji potensialından maksimum istifadəni nəzərdə tutur:** "Respublikamız texniki cəhətdən istifadəsi mümkün olan 27 min meqavat alternativ enerji mənbələrinə malikdir. 3 min meqavat külək, 23 min meqavat günəş enerjisi, 380 meqavat bioenerji, 530 meqavata yaxın dağ çaylarının və bu qəbildən olan digər enerji mənbələrinin kifayət qədər alternativ enerji potensialı var. Bu, ölkənin "yaşıl enerji"yə keçidi üçün əlavə fürsətlər yaratmış olur".

**Ekspert qeyd edib ki, ölkələrdə iqtisadi təhlükəsizliyin təmin olunmasında onun enerji təminatı çox böyük rol oynayır. Hazırda Azərbaycanda enerji təminatı ilə bağlı problem yaşanmasa da nəzərə almaq lazımdır ki, karbohidrogen ehtiyatları tükənən ehtiyatlardır. Bu isə bərpaolunan enerji mənbələrindən istifadənin artırılmasını zərurətə çevirir:** "Bu, ölkənin ərazisi boyu alternativ enerji mənbələrinin aşkarlanması üçün son dərəcə strateji qərardır. Qərarın icrasından sonra "yaşıl enerji"yə keçid daha da sürətlənəcək. Bərpaolunan yeni enerji formalarına keçidin iqtisadi əhəmiyyəti çox böyükdür. Bu, iqtisadiyyatdan icrası üçün böyük layihə tələb edən prosesdir, həmçinin strateji olaraq effektivdir. Bərpa olunan enerji mənbələrinin potensialından səmərəli istifadə edilməsi üçün bərpaolunan enerji məsələləri üzrə informasiya sisteminin də yaradılması qarşıya məqsəd kimi qoyulub. Bu kontekstdə də "Bərpa olunan enerji mənbələrinin potensialı atlası"nın yaradılması da gündəmdədir. Məhz bu atlas üzərindən çıxaraq bərpa olunan enerji mənbələrinin potensial yerləri müəyyən edilir". E.Əmirovun sözlərinə görə, Azərbaycanda neft strategiyasının davamı olaraq bərpa olunan enerji mənbələrindən səmərəli istifadə edilməsi üçün məhz "Bərpa olunan enerji mənbələrinin potensialı atlası"nın yaradılması tələb olaraq qarşıya qoyulub.

**Şəymən Bayramova**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# "Cığır"ın təqdimatı olub

## Yunus Oğuzun yeni kitabı 44 günlük Vətən savaşından bəhs edir





**Yazıçı-publisist, tarixi romanlar müəllifi Yunus Oğuzun "Cığır" romanının tədimat mərasimi keçirilib. Azərbaycan Yazıçılar Birliyinin "Natəvan" Klubunda baş tutan təqdimat mərasimində ölkənin elm adamları, ziyalılar, Yazıçılar Birliyinin rəhbərliyi və İdarə Heyətinin üzvləri, KİV nümayəndələri və paytaxtın 200 saylı məktəbinin bir qrup şagirdi iştirak edib.**

"Şərq" xəbər verir ki, təqdimat mərasimini giriş sözü ilə açan Milli Məclisin deputatı, akademik Nizami Cəfərov "Cığır" romanı haqqında ətraflı məlumat verib. Müəllifin bütün romanları kimi bu romanının da olduqca maraqlı və oxunaqlı olduğunu deyən Nizami Cəfərov "Cığır"a nəinki ölkə daxilində, eləcə də ondan kənarda böyük maraq göstərildiyini vurğulayıb. Akademikin sözlərinə görə, məhz bu marağın nəticəsidir ki, "Cığır" romanı Türkiyə türkcəsinə də uyğunlaşdırılıb.

Nizami Cəfərov bildirib ki, roman Şuşa şəhərinin salınmasının 270 illiyi və 44 günlük Vətən müharibəsindəki tarixi zəfərimizə həsr olunub. Həmçinin romanda müharibədən sonrakı nailiyyətlər, eləcə də Şuşa şəhərinin mədəniyyət paytaxtı kimi önəmindən, onun tarixindən ətraflı şəkildə bəhs edilir. Akademik Yunus Oğuza bundan sonra da Azərbaycan tarixinə, Azərbaycan dövlətini töhfə verəcək əsərlər yazmağı arzulayıb.

Sonra Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi Elnarə Qaragözova kitab haqqında, ümumən Yunus Oğuz yaradıcılığı barədə məruzə ilə çıxış edib. Daha sonra təqdimat mərasimində çıxış edənlər, Azərbaycan Yazıçılar Birliyinin sədr müavini, Mətbuat Şurasının sədri Rəşad Məcid, "Cığır" romanını Türkiyə türkcəsində çap etdirən Mehmet Nuri Barmaksız, yazıçı Elçin Hüseynbəyli, filologiya elmləri doktoru, professor Vaqif Yusifli, "Xalq" qəzetinin baş redaktoru Əflatun Amaşov, AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun doktorantı Yəhya Babanlı, Azərbaycan Yazıçılar Birliyinin üzvü Fəxrəddin Teyyub kitabın məziyyətlərindən, onun gənclərin vətənpərvər ruhda tərbiyə olunmasındakı rolundan, eləcə də Yunus Oğuz yaradıcılığından danışıb, müəllifə uğurlar arzulayıblar. Sonda xatirə şəkli çəkdirilib və iştirakçılara "Cığır" romanı hədiyyə edilib.

*Qeyd edək ki, tədbirdə romanın Türkiyə türkcəsinə uyğunlaşdırılaraq çap edilmiş variantı da təqdim edilib.*

# Ekspres avtobuslar da effektiv olmayacaq

## Tıxac varsa, istər 12 yerdə, istərsə də 2 yerdə dayansın, heç bir fərq etməz



**"Şəhərin ictimai nəqliyyat strukturunda ciddi bir dönüş yaranmayacaq"**

**"Keyfiyyət baxımından 60 qəpiyə gedəcəyimiz ictimai nəqliyyat insanların rahatlığını təmin etməyəcəksə, əhali yenə də 1 manatlıq taksilərə üstünlük verəcək".**

**Bu sözləri "Şərq"ə nəqliyyat məsələləri üzrə ekspert İlqar Hüseynli deyib.**

Onun sözlərinə görə, 1 manatlıq taksi xidməti alternativ, sıx olmayan yerləri seçərək, hərəkət edir, mənzil başına nisbətən tez çatdırır:

"Beləliklə, dayanacaqlarda da avtomobili saxlamağa ehtiyac yaranmır. Bakı Nəqliyyat Agentliyinin (BNA) başladığı layihəni eksperiment hesab etmək mümkündür. Proses hərəkətə gətirildikdən sonra, bir neçə gün ərzində vətəndaş artıq özü marşrut xəttinin effektivliyi barədə dəyərləndirmə aparacaq".

**İ.Hüseynlinin qənaətincə, şəhərdaxili sıxlığı aradan qaldıra bilməyəcəyiksə, tıxaclar olduğu kimi qalacaqsa, ekspres adı altında 12 yerdə dayanan avtobusun işə başlaması faydasız olacaq:**

"Nəticə etibarilə sözügedən marşrut xətti vətəndaşın komfortlu xidmətinin təşkilində rol oynaya bilməyəcək. Tıxac varsa, istər 12 yerdə, istərsə də 2 yerdə dayansın, heç bir fərq etməz. Əhəmiyyətli dəyişiklik görməyəcəyik. İlk növbədə, ən əsas problemlərdən olan tıxaclar aradan qaldırılmalı, daha sonra marşrut xətlərinin istiqamətləri müəyyənləşdirilməlidir. Bunun üçün qardaş Türkiyədən örnək götürmək olar. İstanbul yollarında "Metrobus" deyilən bir sistem fəaliyyət göstərir.

Həmin nəqliyyat vasitələri üçün ayrıca yol müəyyən edilib. Sürücü yalnız əhatələnmiş, xüsusi yollarla hərəkət edərək, gediş-gəlişi təmin edir. Bu da avtobusların mənzil başına heç bir tıxaca, maneəyə rast gəlmədən, rahat şəkildə çatmasına şərait yaradır. Eyni zamanda əlavə yoldan təcili tibbi yardım, yanğınsöndürən və polis maşınlarının istifadə etməsi digər bir üstün haldır. Yeni fəaliyyətə başlayan ekspres avtobuslarının fəaliyyətə başlamasının isə şəhərin ictimai nəqliyyat strukturunda ciddi bir dönüş yaradacağını düşünmürəm. Amma hər halda, bir eksperiment olaraq, nəticəni gözləyək".

*Qeyd edək ki, ötən gün Bakıda fəaliyyətə başlayan E1 ekspres marşrut xəttində gediş haqqı daha əvvəl elan edildiyi kimi 60 qəpik deyil, 50 qəpik olacaq.*

*Bu barədə "Report"a Bakı Nəqliyyat Agentliyindən (BNA) məlumat verilib.*

*Bildirilir ki, bu addım E1 xəttinin cəlbediciliyini daha da artırmaq və vətəndaşları qanunsuz sərnişindaşımalardan çəkindirmək məqsədilə edilib.*

**Sücayət Mehti**

## Çingiz müəllim, mən utanıram!

*Turan Etibaroğlu yazır...*



**"Mən hesab edirəm ki, cavanlara yol verilməlidir. Vəzifədə nə qədər çox cavan kadrlar olarsa, o qədər yaxşıdır. Bu proses bütün dünyada gedir, həmçinin bizdə də.**

**Baxın Rusiyaya, orada nazirlərin çoxsu cavandırlar. Mən düşünürəm ki, yalnız Azərbaycanda deyil, bütün dünya ölkələrində bu proses gedir. Və təbii ki, bu həyatdır, istəsən də, istəməsən də yaşlılar gedir, cavanlar gəlir. Bu, hər zaman olub və olacaq da."**

***Çingiz Abdullayev (2019-cu il)***

Əslində, bu yazı barədə fikirləşəndə çox utandım. Özü də dəhşət çox utandım. Niyə utandım? Onu da deyim.

Görkəmli "yazıçu" Çingiz Abdullayev Xalq yazıçısıdır, mən də xalqın bir nümayəndəsi olduğum üçün o, mənim də yazıçım sayılır və bu fakta görə çox utanıram. Çingiz Abdullayev detektiv yazıçısı kimi dünyanı dolaşır, Allahsızlıq etməyib deyim ki, maraqlı əsərləri var. "Yazıçunun" 27 milyon nüsxədə olan bir çox kitabı dünyada yayılıb, elə sovet yazarlarının təbirincə desək, əl-əl dolaşıb. 200-dən çox kitabın müəllifidir. Kitabları dünyanın 32 dilinə tərcümə olunaraq nəşr edilib. Buna görə də sağlığına qismət, ömrü boyu yaxşı yaşayıb, kef çəkib, titullar, adlar alıb. 1991-ci ildən isə Azərbaycan Yazıçılar Birliyinin birinci katibidir, hətta ürəyi dözməyib bir ara "Neftçi" PFK-nın Müşahidə Şurasının sədri də oldu. Məhz sadaladıqlarıma görə "yazıçu" Çingiz müəllimin gözü ayağının altını görmür, göylərdə uçur. İstədiyi insanları rahatca azarlaya, hətta rahat tənqid edə bilir.

Ötən gün AYB-nin XIII qurultayı üçün ayrılan 203 min manatın çoxluğu ilə bağlı birliyin yeni və əvəzolunmaz sədri Anara sual veriləndə o da "Çingizə sual verin" deyib jurnalistləri dostu, "yazıçu" Çingiz Abdullayevə yönləndirdi. O isə ədəb-ərkanla iddialara cavab verdi: "Bu qədər adama bilet almışıq. Buranın icarə haqqını ödəmişik. Onları mehmanxanaya yerləşdirmişik, kitab çap eləmişik. Bəs siz bilmirsiniz? Xalq yazıçusundan bu sözü soruşmağa utanmırsınız? Ölmürsən?".

Xalq yazıçısını dünyanı fəth edən bir şəxsin məhəllə qadınları kimi danışmağa nə vadar edir? O sualda nə pislik var idi ki? Çingiz Abdullayevin suala verdiyi cavab həqiqətən də bir ziyalıya, məşhur yazıçıya əsla yaraşmır. Jurnalistin qurultaya xərclənən vəsaitlə bağlı sual verməsi niyə bu işə məsul olan şəxsi əsəbiləşdirməlidir?

Yaxşı, tutalım, jurnalist utandı, lap tutalım da öldü. Ay qadasın aldığım "yazıçu" Çingiz müəllim, siz utanmadınız bir gəncin üstünə əl-qol açıb cavab verəndə? Bir "yazıçu" kimi 2 namizədə danışmağa şərait yaratmayanda utanmadınız? Yazıçı haqsızlığa necə susa bilərmiş? Hələ bu azmış kimi yenidən açıqlama verib dediniz ki: "Dediklərimdən peşman deyiləm. Bəli, o sualı verən jurnalist utanmalı idi. Mən sözümün üstündə dayanıram". Yəni doğrudanmı heç olmasa az da olsa bu hərəkətə görə utanmadınız? Siz peşman olub utanmayanda biz jurnalistlər niyə utanmalıyıq ki?

Siz ötən illərdə "Birinci Qarabağ müharibəsi deməyin! Bu müharibə olmayıb, yalandır" fikrini deyəndə utanmadınız? Birinci Qarabağ müharibəsində 18.500 nəfər şəhidi, 3700 itkini inkar edəndə utanmadınız? Məncə, yox, utanmadınız, heç vaxt utanmayacaqsınız. Əslində günahlar bizlərdədir. Çünki biz sizləri zirvəyə qaldırmışıq. Ona görə də siz bu gün bizləri belə "əzirsiniz", hətta lazım olanda döyməyə də hazır olursuz.

Mən şəxsən AYB-nin ötəngünkü qurultayından çox razıyam. İdeal və möhtəşəm saydığımız insanların kim olduqları üzə çıxdı. Ümumiyyətlə, hamının əsl niyyəti bəlli oldu.

Və sonda bir şey deyim: "Yazıçu" Çingiz müəllim, siz həmişə məmurları tənqid edirsiz, özbaşınalıqda ittiham edirsiz. Gənclərin qabağa getməsini tələb edirsiz. Amma dünən özünüz 35 illik sədri yenidən seçib, sərt və hikkəli danışmaqla o məmurlardan heç də geri qalmadınız...

ŞƏRQ Müstəqil ictimai-siyasi qəzet

29 oktyabr 2022-ci il (şənbə) www.sherg.az



# Çingiz Abdullayev rolları qarışdırıb

**Azərbaycan Yazıçılar Birliyinin birinci katibi, Xalq yazıçısı Çingiz Abdullayevin qurultay üçün ayrılan 203 min manatın necə xərclənməsinə dair verilən sualı cavablandırarkən jurnalistləri təhqir etməsi ölkədə geniş müzakirələrə səbəb olub.**

**Yazar Qan Turalının fikrincə, yaşanan bu hadisələr Yazıçılar Birliyinin nə vəziyyətə olduğunun sübutudur: "Bizim illərlə deyib, başa sala bilmədiyimiz mənzərəni AYB rəhbərliyi özü ictimaiyyətə video faktlarla göstərmiş oldu.**







**Qan Turalı:** "Dövlət tərəfindən hansısa bir təşkilata ayrılan vəsaitin hara xərclənməsini sadəcə jurnalistlər yox, sadə vətəndaşlar belə sorğulaya bilər"

**Elçin Hüseynbəyli:** "Kimlərsə belə kritik bir məqamda dövlətlə yazıçıların arasına girməyə uğursuz cəhdlər edir."

**Azər Həsrət:** "Hörmətli Anarla Çingiz Abdullayevin vəzifəsi ən sərt, arzuolunmaz suallara təmkinlə cavab verməkdir"

Çingiz Abdulayev uzun illərdir AYB-nin birinci katibidir, AYB-yə isə dövlət büdcəsindən pul ayrılırsa, qurultay üçün xərclənən məbləği araşdırmaq, bu barədə birinci katibdən soruşmaq jurnalistin təməl haqqıdır.

Mənə elə gəlir ki, Çingiz Abdullayev rolları qarışdırıb. Xalq yazıçısına belə sual verməki ayıbdır deyir. Halbuki, jurnalist o sualı xalq yazıçısına yox, AYB-nin birinci katibi vəzifəsini icra edən Ç.Abdullayevə ünvanlayıb. Bu polemikada əsas diqqət bu məsələyə yönəldilməlidir.

Etiraf edək ki, bu cür böyük tədbirlərin təşkili üçün 203 min manat o qədər də böyük məbləğ deyil. Əksər qurultaylar bu qədər büdcə ilə keçirilir. AYB zamanında ayrılan vəsaitlə bağlı hesabat yaysaydı, nə o suala ehtiyac qalardı, nə də cavaba. Artıq bu sual verilibsə, Çingiz Abdullayev sakit bir tonda xərclənən vəsaitlə bağlı hesabatın yaxın günlərdə ictimaiyyətə açıqlanacağını deməli idi.

Yaxud da nəzakətlə "qurultayın smetasını saytımıza yerləşdirəcəyik" cavabını da verə bilərdi".

Qan Turalının fikrincə, bu sualda qəbahətli və yazıçını təhqir edəcək bir ifadə yox idi. 203 min manatın hesabatına gəldikdə isə dövlət tərəfindən hansısa bir təşkilata ayrılan vəsaitin hara xərclənməsini sadəcə jurnalistlər yox, sadə vətəndaşlar belə sorğulaya bilər: "Çingiz Abdullayevin bu sualı özünə qarşı təhqir hesab edib anormal cavablaması doğru deyil. Jurnalistin sualı hansısa formada verməsi onun təhqir olunmasına əsas vermir. Jurnalistin əsas vəzifəsi əhalini məlumatlandırmaqdır. Jurnalist dövlət büdcəsindən AYB üçün ayrılan vəsaitin təyinatı və aidiyyəti üzrə xərclənməsi ilə bağlı sualını sərt, hətta nəzakətsiz bir formada ünvanlamış olsa belə AYB katibinin borcudur bu barədə hesabat versin. Problem bundan ibarətdir ki, bu tövr, bu münasibət təkcə Çingiz müəllimlə bağlı deyil. Bu, qurumun yaşadığı ətalətin, zamanın ruhundan uzaq düşməsinin nəticəsidir. "Hesabatlılıq" haqqında kiçik bir anlayışı belə olmayan katibin XXI əsr Azərbaycanında təmsil etdiyi qurumun səviyyəsi elə bundan ibarətdir".

**Yazıçı-dramaturq, publisist Elçin Hüseynbəyli isə hesab edir ki, mətbuatı izləyənlər və təcrübəli adamlar Çingiz Abdullayevin emosional və sərt davranışını anlaya bilərlər və anlamalıdırlar da:** "Ayıq başla, emosiyalar səngiyəndən sonra ağıl verməyə nə var ki? Xeyli müddətdir kimlərinsə marağına işləyən mətbuatda bu fikirlər dolaşır: "203 min hara gedib?" və s. və i. Dostlar, biz uzun müddətdir ki, qurultaya hazırlaşırıq. Ölkəmiz üçün bu qədər əhəmiyyətli olan bir tədbirə belə bayağı yanaşmaq anlaşılan deyil. Mən Çingiz Abdullayevin ölkəmiz, AYB üçün hansı işlər gördüyünü, hansı əziyyətlər çəkdiyini demək istəmirəm. Bəzilərini bilirsiniz, çoxunu isə yox. Amma mən bütün bunların şahidiyəm. Anarın da, Çingiz Abdullayevin də, qurumda təmsil olunan digər yetkililərin də bu pulları mənimsəməyə ehtiyacı yoxdur. Ləyaqətli adam ona görə oğurluq etmir ki, bunu bacarmır, sadəcə onun üstünün nə zamansa açılacağından qorxur. Ləyaqətsizləri isə görmüsünüz: milyonları mənimsəyiblər və cəzalarını alıblar. Dövlət bu mötəbər tədbirə ona görə pul ayırıb ki, yazıçıların ölkəmizin həyatında, mədəniyyətində, mənəviyyatında hansı önəmli işlər gördüyünün fərqindədir. Başqa şeyləri demirəm: hər kəs qonaq qarşılayanda (ən kasıbı belə) onun qarşısına urvatlı çıxmaq istəyir.

Bəli, Çingiz Abdullayev rusdillidir. Amma Solovyov kimi ermənipərəst, şovinist birisinin qarşısına çıxanda, ölkə xaricində brendə çevrilən bir yazarımız kimi onunla fəxr edəndə belə düşünmürdünüz axı!? Azərbaycan dilində danışmaq vacibdi, amma doğma dilimizdə danışan o qədər yararsız və mənasız adamlar var ki!

AYB-yə niyə pul ayırdılar deyənlər isə, inciməyin, qul psixologiyasının daşıyıcılarıdır. Hələ onu demirəm ki, (əslində deməliyəm) kimlərsə belə kritik bir məqamda dövlətlə yazıçıların arasına girməyə uğursuz cəhdlər edir. Savaş hələ bitməyib...".

Media eksperti Azər Həsrətin dediyinə görə, Yazıçılar Birliyinin qurultayından sonra Çingiz Abdullayev və Anarın mediaya münasibətinin əsas müzakirə predmetinə çevrilməsi səbəbsiz deyil: "Hətta haqsız da deyil. Hər iki şəxs Azərbaycanda da, ondan kənarda da yetərincə tanınan böyük ədəbiyyat adamıdır. Təbii ki, diqqət mərkəzində olmalıdırlar. Və təbii ki, onlara xoşlarına gəlməyən sualların ünvanlanması da tam normaldır. Hətta bəzi jurnalistlər bu sualları naşıcasına, lap belə jurnalist etikasını pozaraq ünvanlasa da. Hörmətli Anarla Çingiz Abdullayevin vəzifəsi də ən sərt, arzuolunmaz suallara təmkinlə cavab verməkdir. Amma görürük ki, onların ikisi də, təəssüf ki, jurnalistlərlə münasibətdə uyğunsuz davranış sərgiləyib. Anarın jurnalistləri "zəhərli" adlandırması heç yerinə düşmür. Çingiz Abdullayevinsə suala verdiyi cavab həqiqətən də bir ziyalıya, məşhur yazıçıya əsla və əsla yaraşmır. Jurnalistin qurultaya xərclənən vəsaitlə bağlı lap elə kobud şəkildə sual verməsi niyə bu işə məsul olan şəxsi əsəbiləşdirməlidir? Şəxsən mən olsam, sakitcə, təmkinlə deyərdim ki, bir az başımız açılsın, hesabatı ictimailəşdirəcəyik. Yəni bunu demək çoxmu çətindir? Belə olsaydı jurnalistlər də razı qalardı və bu xoşagəlməz müzakirələr baş alıb getməzdi".

**Şəymən Bayramova**

# 13 pillə gerilədik və 93-cü yerdə qərarlaşdıq

## Azərbaycanda innovasiyalara yetərincə resurslar ayrılıb, amma nəticə adekvat olmayıb

**"Daha bir beynəlxalq hesabatda geriləməyimiz müzakirə mövzusu olub. Məlum olduğu kimi bir müddət öncə "Qlobal İnnovasiyalar İndeksi 2022" dərc edilib. Azərbaycan innovasiyaların səviyyəsinə görə 13 pillə geriləyib və 93-cü yerdə qərarlaşıb".**

Bu sözləri "Multimedia" İnformasiya Sistemləri Texnologiyaları Mərkəzinin direktoru Osman Gündüz deyib.

Mərkəz direktoru eyni zamanda Azərbaycanın BMT-nin "Elektron hokumət indeksi 2022" hesabatında da 13 pillə gerilədiyini xatırladıb: "Qlobal İnnovasiyalar İndeksi 2022" Hesabatı hər il Kornel Univesriteti, İNSEAD və Ümumdünya Əqli Mülkiyyət Təşkilatının birgə iştirakı ilə dərc edilir. Bu il Hesabat 132 ölkəni əhatə edib. Hesabata diqqət yetirəndə görmək olar ki, postsovet ölkələrindən Estoniya 18-ci, Rusiya 47-ci, Ukrayna 57-ci, Gürcüstan 72-ci, Ermənistan 80-ci, Özbəkistan 82-ci və Qazaxıstan 83-cü yerləri qazanıblar. Azərbaycan 93-cü yeri tutmaqla yalnız Tacikistan və Qırğızıstanı üstələyə bilib. Qlobal innovasiyalar indeksi 81 indikator üzrə qiymətləndirmə aparmaqla tərtib edilir.



Onlar da "İnnovasiya resursları" (yəni innovasiyalar üçün əlverişli mühit, infrastruktur, ayrılan resurslar, qanunvericilik, insan kapitalı və elmi tədqiqatlar, biznes və s.) və "İnnovasiya nəticələri" (yəni innovasiyalar sahəsində faktiki uğurlar, yaradıcı fəaliyyətin nəticələri, bilik və texnologiyalar və s.) subindeksləri üzrə qruplara bölünür. Hesabatdan görsənir ki, Azərbaycanın əsas problemi "İnnovasiya nəticələri" bölməsi üzrə olub. Anlaşıqlı desək, Hesabatı hazırlayanların məntiqinə görə, Azərbaycanda innovasiyalara yetərincə resurslar ayrılıb, amma nəticə adekvat olmayıb.

Azərbaycan "İnnovativ nəticələr" üzrə ən aşağı yerlərdən birini, 110-cu yeri qazanıb.

Ötən günlər məlumat verilib ki, hökumətin tərkibində olan Biznes mühiti və Beynəlxalq reytinqlər üzrə Komissiyanın Qlobal İnnovasiyalar İndeksinə cavabdeh qurumların toplantısı keçirilib.

Toplantı barədə yayılan açıqlamada ölkəmizin bu hesabatda geriləməsi ilə bağlı hər hansı məlumat verilməyib.

Lakin açıqlanan məlumatdan görünür ki, hökumət də bu məsələdən narahatdır.

Xüsusən də, açıqlanan rəsmi məlumatda innovasiyaya qoyulan sərmayə ilə əldə olunun innovasiya nəticələri arasındakı kəskin fərqin səbəblərinin araşdırılmasına xüsusi diqqət yetiriləcəyi qeyd edilib".

**O.Gündüzün sözlərinə görə, Azərbaycanla bağlı göstəricilərin yaxşılaşdırılması üçün Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın Katibliyinin Matrisa layihəsi də hazırlanıb:** "Bu Layihə İndeksin hər bir indikatorunun yaxşılaşdırılması və bu haqda beynəlxalq qurumlara məlumat göndərməsi üzrə məsul qurumların müəyyən edilməsini nəzərdə tutur. Matrisanın tam mətni açıqlanmayıb.

Son hesabatlarla bağlı proseslərdə diqqəti cəlb edən həm də odur ki, adətən irəliləmə olduqda bütün rəhbər qurumların birinci şəxsləri toplantılara qatılır, açıqlamalar verilirdi. Gerilәmәdә isə üzə çıxmaq istəyənlər çox az olur".

**Şəymən**

# Süni maneələr aradan qaldırılmasa daha pis olacaq

## Xarici investorlar Azərbaycanda qeyri-neft sektoruna maraq göstərmir



**Xarici investorların ölkəmizdə neft sektorundan fərqli olaraq, qeyri-neft sektoruna gəlməyə marağı yoxdur". Bu sözləri Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin dünən keçirilən iclasında deputat Əli Məsimli deyib: "Dövlət-özəl tərəfdaşlığı haqqında" qanunun qəbulu investorların neftdənkənar sektora cəlb edilməsi üçün çox vacibdir.**

Bu qanunda qardaş ölkə Türkiyənin, eyni zamanda digər qonşu ölkələrin təcrübəsindən istifadə edilməsi yaxşı haldır, amma istisnalar var. Qeyd edildiyi kimi, MDB ölkələrinin təcrübəsində də çatışmazlıqlar var, onlar nəzərə alınıbmı? Ona görə də bu çatışmazlıqlar qanunda əks olunmalıdır". Deputat vurğulayıb ki, maliyyə təminatı sahəsində qanunun inkişaf etdirilməsinə ehtiyac var: "Qanunda dövlət-özəl tərəfdaşlığı hissəsi təkmilləşdirilməlidir, layihədə çox ümumi xarakterli məlumatlar var. Azərbaycanda yerli investorlarla bağlı problemlər var. Bu gün qanunun tələblərinə cavab verən şirkətlər bəllidir. Hamı üçün şərait yaradılacaqsa, qanunda maddələr genişlənməlidir".

Qeyd edək ki, Azərbaycan iqtisadiyyatına, xüsusilə qeyri-neft sektoruna xarici investisiyaların cəlbi həmişə diqqət mərkəzində olan məsələlərdən biridir. İqtisadiyyatı və ixracı şaxələndirməklə (diversifikasiya etməklə) neft-qaz gəlirlərindən asılılıq səviyyəsinin azaldılmasına qısa müddətdə nail olmaq istəyən Azərbaycan üçün qeyri-neft sektoru sahələrinə, xüsusilə emal sənayesinə birbaşa xarici investisiyaların cəlb edilməsi xüsusi əhəmiyyət kəsb edir.

***"Banklara birbaşa daxil olmağa şərait yoxdur, bunun üçün rəqabətli mühit yaradılmalıdır"***

**Xarici investisiyaların böyük əksəriyyətinin hələ də neft sektoruna yönəldiyini vurğulayan iqtisadçı-ekspert Natiq Cəfərlinin fikrincə, xarici investorların Azərbaycanda qeyri-neft sektoruna sərmayə qoyuluşunda maraqlı olmamasının bir neçə səbəbi var:** "Hər bir ölkənin biznes və investisiya mühitinin vəziyyəti həmin ölkənin xarici investisiyalar cəlb etmək və kiçik və orta müəssisələri inkişaf etdirmək qabiliyyətini müəyyən edən başlıca amildir. Transmilli müəssisələr sağlam biznes mühitinə malik, yəni xərclərin, gecikmələrin və riskin minimum səviyyədə olduğu ölkələrə investisiya yatırmağı üstün tuturlar. Bundan əlavə, kiçik və orta müəssisələrin inkişaf etmək imkanları müxtəlif vergi və tənzimləmələrlə yüklənməmiş bir mühitdə daha yüksəkdi. Azərbaycan iqtisadiyyatının üzləşdiyi əsas problemlərdən biri də məhz birbaşa xarici investisiyaların azalmasıyla bağlıdır. Xüsusən qeyri-neft sektoruna, istehsal, emal sənayesi və kənd təsərrüfatına birbaşa xarici investisiyaların azalması iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft iqtisadiyyatının davamlı inkişafı, idxaldan asılılığın azaldılması, ixrac potensialının artırılması istiqamətində qarşıya qoyulan hədəflərə nail olmaqda əsas maneə kimi qeyd oluna bilər".

**Azərbaycanda biznes sektorunda sərmayələrin qoyuluşu üçün stimul olmadığını vurğulayan ekspert deyib ki, banklarda kredit faizləri yüksəkdir və ölkə daxilində investorlar sərmayə qoyuluşuna maraq göstərmirlər:** "Elə istehsal sahələri var ki, həmin sahələr yaradılandan sonra 3-5 il gəlir əldə etmir. İstehsalın təşkili, tikinti işləri, yeni bazarların tapılması vaxt aparır. Sahibkar 3 il ərzində həm işləri yoluna qoymalı, həm də bu müddət ərzində götürdüyü kreditin faizini verməlidir. Digər tərəfdən, xarici investorların, bankların birbaşa daxil olması üçün bizdə şərait yoxdur. Bunun üçün rəqabətli mühit yaradılmalıdır. Bəzi süni maneələr aradan qaldırılmalıdır ki, xarici sərmayədarlar ölkə iqtisadiyyatına investisiya qoymaqda maraqlı olsunlar. Hərtərəfli əlverişli şərait yaradılmasa, qeyri-neft sektoruna sərmayə qoyuluşu artmayacaq. Azərbaycan uzun müddətdir ki, iqtisadiyyatının şaxələndirilməsindən danışır və burada ilk növbədə, iki sahə həmişə önə çıxıb - kənd təsərrüfatı və turizm. Amma təəssüf ki, ölkənin makroiqtisadi göstəricilərinə nəzər salsaq, neft-qaz amili büdcənin formalaşmasında və xarici ticarətdə böyük əhəmiyyətə və təsirə malikdir".

**Şəymən**



# Bəzi proqramlar mövcuddur

## Valideynlər bunların köməyi ilə internetdə övladlarına nəzarət edə bilərlər

**Hər bir valideyn üçün uşaqlarının rifahı və təhlükəsizliyi hər şeydən əvvəl gəlir, buna görə də uşaqlarımız telefona cavab verməyəndə və ya məktəbdən həmişəkindən gec qayıtdıqda narahat olmağa başlayırıq.**

Bu cür narahatlıqların qarşısını almaq üçün bəzi proqramlar mövcuddur.

Bunlar "Find My Kids", "Screen Time App", "Qustodio free", "Safe Family", "Kids Place", "Pure Web", "Mobicip" və s-dir.

*Bu proqramlarda aşağıdakı özəlliklər mövcud olur.*

**1)** Bir sıra veb saytlara girişi məhdudlaşdırmaq.

**2)** Qara siyahı (black list) yaratmaq.

**3)** Axtarış edilən məzmunu filtrləmək.

**4)** Ekran vaxtını tənzimləmək.

**5)** Daxil olduqları veb saytların siyahısı ilə tanış olmaq.

**6)** Axtarış edilən məzmun siyahısı barədə məlumatlı olmaq.

**7)** Övladınızın cari yeri barədə bildiriş təqdim edən və SOS siqnalı vasitəsilə övladınızın ətrafındakı fəaliyyətləri qeyd edən təcili zəng düyməsi.

**8)** Uşağınıza dəfələrlə zəng etmək lazım deyil. Proqram sizə avtomatik məkan yeniləməsini təmin edir.

**9)** Siz övladınızın fəaliyyəti, ziyarət etdiyi yerlər və harasa getmək üçün üstünlük verdiyi marşrut kimi məlumatları özündə əks etdirən statistik hesabat yarada bilərsiniz.

# Sağlam qidalanma, çəkiyə diqqət!

## İnsultun insandan asılı olan və olmayan səbəbləri var

**Sağlam həyat tərzi insultun qarşısını almaq üçün edə biləcəyiniz ən yaxşı vasitələrdən biridir. Bunu Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti Dilarə Xəlilova deyib.**

*D.Xəlilova ilə müsahibəni təqdim edirik:*

**- Bildiyiniz kimi, oktyabrın 29-u Ümumdünya İnsultla Mübarizə Günüdür. Dilarə xanım, insult nədir və hansı növləri var?**

- İnsult beyinin müəyyən bir nahiyəsinin zədələnməsinə gətirib çıxaran qan dövranının kəskin pozulmasıdır.

Oktyabrın 29-u Ümumdünya İnsultla Mübarizə Günü kimi qeyd edilir. Həmin günün yaranma tarixi 2004-cü ildə Ümumdünya Səhiyyə Təşkilatının insultu qlobal epidemiya elan etdiyi vaxtdan başlanıb və bundan iki il sonra İnsultla Mübarizə üzrə Ümumdünya Təşkilatı yaradılıb.

Hər il 16-17 milyon insan insult keçirir. İnsultla bağlı ölüm halları 30-35%, ümumi ölüm sayının isə 11% təşkil edir. Beyin insultu ömürlük əlilliyə səbəb olacaq xəstəlik kimi dünyada birinci yerdə durur. Belə ki, insult keçirən xəstələrin 31% kənar şəxslərin köməyinə möhtac qalır, 20 %-də hərəki funksiya bərpa olunmur, yalnız 8-10% insanlar əvvəlki işinə və həyat tərzinə qayıda bilir.

İnsultun yaranma mexanizminə görə əsas 2 növü vardır: işemik və hemorraqik. İşemik növü bütün insultların 80-85%, hemorraqik isə 15-20% təşkil edir. İşemik insult zamanı beyin damarlarında trombotik, embolik tutulma yaranır, həmin hövzədə qan təchizatı pozulur və nekroz yaranır.

Hemorragik insult serebral arteriyanın travmatik genezli olmayan partlaması və qanın intrakranial sahəyə - intraventrikulyar, intraserebral, subaraxnoidal, subdural və ya epidural olaraq axması nəticəsində beyin qan dövranının kəskin pozulmasıdır. Bu növ insultun əsas yaranma səbəbi beyin damarlarının anevrizması, arteriovenoz transformasiyası və ya damar divarının ateroskleroz nəticəsində kövrəkliyi olur. Subaraxnoidal qansızma cavan insanlara xasdır. Qəflətən başlayır, başgicəllənmə, gözdə sayrışma, başda küy, kəskin baş ağrısı, ürəkbulanma, qusma, şüurun pozulması, psixomotor oyanma, meningial sindrom qeyd olunur. Epileptik tutmalar, tənəffüs, ürək-damar pozulmaları baş verə bilər. Qeyd edim ki, hər iki insult növündə zədələnmiş beyin nahiyəsi öz funksionallığını itirir və geriyədönməz nevroloji defisitə gətirib çıxarır.

**- Xəstəliyin simptomlarına və əlamətlərinə nələr daxildir?**

- İşemik insultun klinik təzahürləri müxtəlifdir və hansı arterial hövzədə olmasından bir başa asılıdır.



Ümumi klinik əlamətləri aşağıda göstərilənlər ola bilər: bədənin hər hansı hissəsində, xüsusən də sifət, əl və ayaq daxil olmaqla bədənin bir tərəfində hərəkətin (plegiya) və ya hissiyyatın pozulması, görmənin zəifləməsi, nitqin aydınlığının pozulması (dizartriya), hərəkətlərin koordinasiyasının pozulması, baş gicəllənməsi, udma aktının pozulması, qıcolma tutmaları, yaddaşın, tanıma qabiliyyətinin pozulması, şüurun pozulması.

İnsultun baş verdiyini nə qədər tez anlayıb, tez bir zamanda xəstəxanaya çatdırmasının xəstə üçün böyük əhəmiyyəti vardır. Bu səbəbdən bütün dünyada əhalini maarifləndirmək üçün BE FAST sindromu öyrədilir.

B (balans) - tarazlıq və yerişin pozulması,

E (eye) - görmə pozulması,

F (face) - üzün və ya ağız bucağının əyilməsi,

A (arm) - xəstənin əlində və ayağında (yaxud yalnız əldə, yalnız ayaqda) qəflətən yaranan zəiflik və ya hərəkətsizlik,

S (speech) - Nitqin aydınlığının pozulması və ya olmaması,

T (time) - dərhal, vaxt itirmədən təcili yardıma müraciət etmək.

- İnsultu yaradan risk faktorları hansılardır?

- Yüksək qan təzyiqi, şəkərli diabet, hiperxolesterinemiya, səyrici aritmiya, qanın reoloji dəyişiklikləri, zərərli vərdişlər (siqaret, alkoqol, oturaq həyat tərzi, piylənmə, irsiyyət və s.)

**- İnsultdan qorunmaq üçün nələrə diqqət etməliyik?**

- İnsultun insandan asılı olan və olmayan səbəbləri vardır. Təbii ki, insan yaşını, cinsini, irsiyyətini dəyişə bilmədiyinə görə özünü nə qədər qorusa da, insulta tutulma ehtimalı var. Lakin həyat tərzinə diqqət edilsə, bu ehtimal minimuma qədər endirilə bilər. Belə ki, insan sağlam qidalanmalı, çəkiyə diqqət etməli, aktiv həyat tərzi aparmalı, zərərli vərdişlərdən uzaq olmalıdır. Əgər öncə sadaladığım risk faktorları (təzyiq, şəkər, qanda xolesterin səviyyəsi, laxtalanma, ürək-damar xəstəlikləri) varsa, onları mütləq şəkildə kontrol altında saxlamalı, vaxtlı-vaxtında müayinələrdən keçməlidir.

# Gəzməli, görməli yerlər...

## Belçika haqqında 10 maraqlı faktı bilirdinizmi?







(Əvvəli səh: 16-da)

### Dünyanın 2-ci ən uzun kişisi Belçikada yaşayır

Daha bir maraqlı məlumat. Qarışıq irqli Belçika Avropada ikinci ən uzun kişilərə sahibdir. Liderlik Hollandiyaya məxsusdur. Mütənasib desək, Hollandiyada kişilərin orta boyu 182,5 sm-dir. Belçikada bu nisbət 181,7 sm-dir. Ümumi çoxluğa baxsaq, burada ən çox ağdərili insanlar yaşayır.

### Dünyanın ən yaxşi musiqi festivalları buradadır

”Tomorrovland”, ”Rock Verçter”, ”I love Texno”, ”Boombal Festival” və ”Dour Festival” Belçikada keçirilən və bütün dünyada gənclərin iştirak etməyə can atdıqları əfsanəvi musiqi festivallarıdır. Bu musiqi festivallarından başqa, Belçikada da bir çox müxtəlif festivallar keçirilir. ”Brügge” - Pivə Festivalı, ”Gent” - İşıq festivalı, Brüssel Lalə festivalı (hər il avqust ayında) bunlardan bəziləridir. Bundan əlavə, Belçika hər il Milad dövründə qurulan Milad bazarları ilə Avropada çox iddialı bir mövqededir.

### Belçika şəhər adları istənilən zaman dəyişə bilər

Buna səbəb şəhərin 3 fərqli hissəsidir. Vallon, Flamand və Alman hissələri şəhərləri öz dillərində tələffüz edir. Misal üçün; Brüssel və ya Brüksel; Brügge (Brüge), Hollandiya Brüggesi, Almaniyanın Brüggesi, Fransanın Brüggesi kimi görünə bilər.

### Belçika sənət tarixində unikal imza

Belçikada çoxlu filmlər çəkilir. Bunlardan ən məşhuru Colin Farrelin oynadığı ”Brüggedə” filmidir. Məzmun baxımından Brugge şəhəri haqqında çox məlumat verməsə də, şəhəri sizə vizual ziyafət kimi təqdim edir.

Məşhur Hollivud ikonası Edri Hepbern və aksiyon ulduzu Jan Klod van Dam da Belçikada doğulmuş iki məşhur addır. Lüdviq van Bethovenin ailəsinin belçikalı olduğu barədə şayiələr yayılıb. Başqa bir mifə görə, Bethoven öldükdən sonra əsərlərinin Lyejə aparılmasını istəyib. Nəhayət, Gent şəhərində dünya ədəbiyyatı tarixinin məşhur əsəri Viktor Hüqonun ”Səfillər” əsərinin sonuncu hissəsi tamamlanıb. Səbəb Hüqonun bu şəhərə sürgünə göndərilməsi olub.

### Belçika YUNESKO-nun qoruğunda

Bəli, Belçikada UNESCO-nun 17 irsi var. Ən diqqət çəkəni Brugge şəhəridir. Deməli olar ki, bütün şəhər YUNESKO-nun mühafizəsi altındadır. YUNESKO burada ev sahibi olmaq istəyənlərə ağır sanksiyalar tətbiq edir. YUNESKO-ya A-dan Z-yə qədər hər bir detalı bildirməsəniz, Bruggedə ev ala bilməzsiniz. Belçikada ölkə daxilində tətbiq olunan qaydalar Brugesdə fərqli işləyir. Bu şəhərin rəngi, nizam-intizamı və fərqli yaşayış sistemi var.

### Avropa Birliyi ölkələrindən ən yüksək vergi dərəcələri Belçikadır

Belçikada ev sahibi olmaq o qədər də çətin deyil. Avtomobil sahibi olmaq üçün də müxtəlif rahatlıqlar var. Texnologiya həm də nisbətən ucuzdur. Ancaq xəstə olanda həkimə getməyə az qala maaş xərcləyə bilərsən. Diş həkiminə getmək istəyirsinizsə, cibinizdəki 150 dollar artıq sizin deyil. Evin köçürülməsi bir ev qədər baha başa gələ bilər. Yeni əşyaların alınması da çox ciddi xərc və vergi məsələsidir. Əgər təkrar emal oluna bilən materialları digər zibillərlə birlikdə atsanız, çox ciddi cəzalandırılacaqsınız.

### Belçikanın pivəsi, və şokoladı əvəzsizdir

Şokolad burada İsveçrə və Almaniyadan çox yaxşıdır. Vaflilərə can atırsınız? Belə bir dad yoxdur! Onların bu ləzzəti yalnız xəmir şəkər tozu və ağcaqayın siropu ilə tuta bilmələri inanılmazdır. Əgər siz kartof qızartması həvəskarısınızsa, Belçika təcili yardım çağırışı kimidir. 10 müxtəlif növ kartof yetişdirilir. Nəhayət, onlar Almaniyanı pivə baxımından pis keçiblər. Məşhur deyim var: ”Belçikada 4 il ərzində hər gün fərqli bir pivə içə bilərsiniz, amma eyni pivənin heç vaxt iki dəfə dadına baxa bilməzsiniz”.

**Turan**



**Təbrik edirik!**

**Renatı 1 yaşının** tamam olması münasibətilə atası, anası, babası, nənəsi və bütün sevdikləri təbrik edir. Gül balaya cansağlığı, uzun və gözəl bir ömür arzulayırlar.

## “Quş azad oldu”

### Elon Mask “Twitter”i alıb



**Avropa Birliyi Komissiyasının daxili bazarına cavabdeh olan Tyeri Breton Elon Maskın ”Twitter”i satın aldıqdan sonra ”quş azad oldu” mesajını paylaşmasına qarşılıq verib.**

Breton bildirib ki, Avropadakı quş bizim qanunlarımıza görə uçacaq. O, mesajında AB-nin rəqəmsal servislər qanununa istinad edərək ”DSA” etiketindən istifadə edib.

*Qeyd edək ki, bu qanun rəqəmsal servis provayderlərinin ”nifrət ifadəsi” kimi internetdə qanunsuz olduğuna qərar verilən məzmunların, ”Twitter” kimi proqramlardan ən qısa zamanda çıxarılmasını tələb edir. Xatırladaq ki, ”Tesla” və ”SpaceX”-in ”CEO”su Elon Mask, sosial mediya şirkəti olan ”Twitteri” iki gün öncə 44 milyard dollara satın alıb.*

**Nihat Müzəffər**




## "Nar" Qlobal Saziş çərçivəsində BMT ilə əməkdaşlığa davam edir

**Mobil operator ”Nar” 27 sentyabr tarixində BMT-Azərbaycan tərəfdaşlığının 30-cu ildönümünə həsr olunmuş BMT Günü tədbirində iştirak edib.**

Açılış nitqi ilə çıxış edən BMT-nin rezident əlaqələndiricisi Vladanka Andreeva və Azərbaycanın xarici işlər nazirinin müavini Elnur Məmmədov dayanıqlı inkişaf məqsədlərinə nail olmaq istiqamətində BMT-Azərbaycan tərəfdaşlığının əhəmiyyətini qeyd ediblər.

200-dən çox dövlət rəsmisi, parlament üzvü, diplomatik korpus təmsilçisi, eləcə də vətəndaş cəmiyyəti və media nümayəndəsinin qatıldığı tədbirin dəvətliləri sırasında mobil operator ”Nar”ın Baş icraçı direktoru Qunnar Panke də yer alıb. Xatırladaq ki, ”Nar” 2022-ci ilin may ayından etibarən dünyanın sosial məsuliyyətli bizneslərini bir araya toplayan BMT Qlobal Sazişinin bir parçasıdır. Bu saziş şirkətlərə qlobal davamlılıq təşəbbüslərini daha sistemli şəkildə həyata keçirməyə və davamlı hesabatlarla şəffaflığa nail olmağa imkan verir. ”Nar” ölkə üçün mühüm sosial əhəmiyyətə malik layihələri ilə hər zaman cəmiyyət qarşısında öhdəliyini sadiqliyini ifadə edir.

# 38 min funt-sterlinqə satılıb

## Fatih Sultan Mehmetin təsvir olunduğu medalyon Türkiyəyə qaytarılır

**Fatih Sultan Mehmetin təsvir olunduğu antik medalyon Türkiyəyə gəlir. İngiltərədə hərraca çıxarılan sikkə İstanbul Böyükşəhər Bələdiyyəsi tərəfindən alınıb.**

İngiltərənin paytaxtı Londonda ”Christie's” hərrac evində ”İslam və Hindistan dünyası, Şərq kilimləri və xalçaları” adlı hərrac keçirilib. Hərracda Fatih Sultan Mehmetin təsvir olunduğu medalyon da hərraca çıxarılıb. Sikkənin üzərində ”Bizans imperatoru Osmanoğlu Sultan Məhəmməd” yazılıb.

”Şərq” xəbər verir ki, italyan heykəltəraş və rəssam Konstanza de Ferraranın 1481-ci ildə Neapolda hazırladığı medalyon 38 min funt-sterlinqə (təxminən 821 min türk lirəsinə) fransız kolleksiyaçı Şarl Düprizin ailəsi tərəfindən hərraca çıxarılıb və satılıb.

İstanbul Böyükşəhər Bələdiyyə Başçısı Əkrəm İmamoğlu sosial media hesabında ”Bu qiymətli madalyon evə dönür” deyərək sikkənin İBB tərəfindən alındığını açıqlayıb.

Üz tərəfində Fatih Sultan Mehmetin portreti olan sikkənin arxa tərəfində hökmdarın at üzərində təsviri görünür. Əsərin ən diqqət çəkən cəhəti kimi sikkənin hər iki



üzündəki latın yazılarıdır. İntibah dövrünün ən yaxşı portret medallarından biri olaraq xarakterizə edilən, üz tərəfində ”Bizans imperatoru Osmanoğlu Fatih Sultan Mehmet 1481”, arxa tərəfində isə ”Asiya və Yunanıstan hökmdarı Mehmet, səfərdə portret” yazıları var.

Fatehin İtaliyadan sənətçi göndərmək istəyi ilə İstanbula gələn Ferraranın o dövrdə Neapol hökmdarı Ferrantenin sarayında işlədiyi məlumdur. Hərrac evindən verilən açıqlamaya görə, sikkənin ön hissəsindəki portretin monarxın sağ olduğu dövrdə təsvir edildiyi bildirilir.

**Turan**

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:

Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet “Şərq”in kompyuter mərkəzində yığılır, səhifələnir və “Azərbaycan” nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, “Azərbaycan” nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: “Kapitalbank”ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 3073



## Gəzməli, görməli yerlər...

Belçika haqqında 10 maraqlı faktı bilirdinizmi?

**Belçikalılar holland, fransız və alman dilində danışırlar.**

Qərb hissəsi hollandca, şərq hissəsi fransızca, Almaniya ilə həmsərhəd hissəsi isə almanca danışır. Brüssel bütün bu üç ayrı hissənin kəsişməsində yerləşir. Buna görə də Brüsseldə bu üç dildən eyni vaxtda istifadə olunur. Hətta Brüsseldəki metro stansiyaları üç hissəyə bölünmüş dayanacaqlardan ibarətdir. Stansiyalar şəhəri üç ayrı hissəyə bölür. Müxtəlif dillərdə danışan üç ayrı bölməyə səyahətlər var. Çox, maraqlıdır. Brüsselin şimal hissəsi türklərin çoxluq təşkil etdiyi bir yerdir. Burada fransız dili üstünlük təşkil edir. Hər bölgə bir-birinə aid olan dilləri məktəblərdə məcburi fənn kimi göstərir. Belçikada 14 yaşına qədər fasiləsiz olaraq məktəbə gedən şagird 4 fərqli dildə mükəmməl danışa bilir.

*(Davamı səh: 15-də)*

**Turan**

## Usta atlı gündəm oldu

Stiv Cobsun qızı poza verdi



**"Louis Vuitton" brend siması olaraq 2011-ci ildə vəfat edən keçmiş "Apple"in baş direktoru Stiv Cobsun qızı Eve Jobsu seçib. 24 yaşlı Eve Jobs Twist çantalarının 2022-ci ilin qış kolleksiyasını təqdim edib.**

Usta atlı kimi tanınan Cobs atlar ilə obyektivlərə poza verib.

Tanıtım çəkilişində Eve Jobs cins, crop top, jilet-yubka dəstləri kimi geyimlərlə diqqət çəkib. Eve Jobs Stiv Cobsun Loren Pauellə evliliyindən dünyaya gələn üç övladından biridir.

*O, dünyanın 25 yaşadək ən yaxşı 1000 idmançısı arasında beşinci yeri tutur.*

## Bakıda 21 yaşlı qız çəngəl uddu




**Bakıda 21 yaşlı gənc qız çəngəl udub.**

**Medicina.az-ın məlumatına görə, 2001-ci il təvəllüdlü Aysel Həmidova (Ad şərtidir) özün qusdurmaq üçün çəngəldən istifadə edib. Bu zaman çəngəl boğazına girib.**

**Dərhal 1 saylı Kliniki Tibbi Mərkəzin ("Semaşko" xəstəxanası) təcili yardımına aparılıb.**

**Daha sonra o, özəl klinikalardan birinə alınaraq, orada əməliyyat olunub.**

## Rihanna illər sonra "Qara Pantera" üçün oxudu





**Məşhur müğənni Rihanna 6 illik aradan sonra yeni mahnısını təqdim edib.**

**Axşam.az xəbər verir ki, ifaçının "Lift me up" adlı yeni solo treki işıq üzü görüb. Mahnı noyabrın 11-də premyerası olacaq "Black Panther: Wakanda Forever" filminin saundtrekinə daxil edilib.**

**Rihanna yeni mahnısını eyniadlı filmdə "Qara Pantera" rolunun canlandıran aktyor Çedvik Bouzmanın xatirəsinə həsr edib.**

***Qeyd edək ki, Bouzman 2020-ci ildə onkoloji xəstəlikdən dünyasını dəyişib.***



# 400 il əvvəl ölmüşdü

Mumiyalanmış körpənin sirri açıldı!

**Mumiyalanmış körpənin ölüm səbəbi onun vəfatından təxminən 400 il sonra məlum olub. "Şərq" xarici mətbuata istinadən xəbər verir ki, alman alimləri Avstriya qəbiristanlığında 17-ci əsrə aid mumiyalanmış uşağın cəsədi üzərində "virtual yarılma" əməliyyatı aparıblar.**

Deformasiyaya uğramış taxta tabutda basdırılan balaca oğlanın bədəni həm kök, həm də qidasız görünürdü. Tədqiqatçılar bildiriblər ki, "Frontiersin Medicine" jurnalında dərc olunan araşdırma göstərir ki, bu tapıntı ilə Avstriyanın tarixi aristokrat cəmiyyətinə bir nəzər salmaq olar.

CT-dən istifadə edərək, elm adamları zirzəmi şəraitində təbii mumiyalanmış mumiya üzərində "virtual yarılma" həyata keçiriblər. Yaxşı qorunan yumşaq toxumalar uşağın oğlan olduğunu, yaşına görə artıq çəkidə olduğunu göstərib. Tədqiqatçılar bədənin sümüklərinin əmələ gəlməsini və uzunluğunu, həmçinin dişlərin çıxmasına dair dəlilləri araşdıraraq, uşağın öldüyü zaman təxminən bir yaşında olduğunu təxmin edə biliblər. Sümüklərin yaxşı qidalanmasına baxmayaraq, uşağın sınıq qabırğalarında da raxit əlamətlərinin olduğu da müəyyən olunub. Bu vəziyyət raxit (vitamin D) və sinqa (vitamin C) kimi spesifik vitamin çatışmazlığı ilə əlaqəli xəstəliklər nəticəsində yaranır. D vitamini qızılbalıq, ton balığı, skumbriya, mal əti qaraciyəri və yumurta sarısı kimi qidalarda olur. Lazım olan D vitamininin təxminən 10 faizini qidadan alırıq, qalanı isə günəş işığından qəbul edilir.





"Münhen-Bogenhausen" Akademik klinikasının aparıcı tədqiqatçısı Andreas Nerliç deyib: "Ciddi vitamin çatışmazlığı və piylənmə yaxşı qidalanmamamaq və günəş işığının az qəbulu ilə izah edilə bilər. Ağciyərlərdə iltihabın dəlillərinə əsasən, oğlanın pnevmoniyadan öldüyü görünür. Raxitlik uşaqları pnevmoniyaya daha həssas edir. Bu, onu deməyə əsas verir ki, təəssüf ki, uşağın düzgün qidalanmaması onun vaxtsız ölümünə səbəb olur".

**Turan**

## Bir ayda 23 nəfər zəhərləndi

Mümkün qədər uzaq durmaq lazımdır

**Türkiyənin Düzce bölgəsində yağan yağışlardan sonra təbiətdə yetişən göbələkdən istifadə edən vətəndaşların sayında artım yaşanıb.**



Bu vəziyyət zəhərlənmə hallarını da özü ilə gətirib. Son olaraq Beyciler məhəlləsində yaşayan Medine Yalçın (32) göbələkdən zəhərləndiyi üçün Düzce Atatürk Dövlət xəstəxanasında müalicə olunub.

"Şərq" türk mediasına istinadən xəbər verir ki, oktyabr ayında meşədən topladıqları göbələkləri yeyən 23 nəfər zəhərlənib.

Düzce İl Sağlamlıq Müdiri Yasin Yılmaz bu mövzuda əhaliyə xəbərdarlıq edib. Təbiətdə yetişən göbələklərin istehlakının ölümcül nəticələrə səbəb ola biləcəyini ifadə edən Yılmaz, "Göbələk zəhərlənməsinə qarşı diqqətli olmalıyıq. Təbiətdə yetişən təbii göbələkləri "tanıyıram" deyərək yığıb istehlak etmək çox təhlükəlidir" deyə bildirib.

Yılmaz deyib: "Qablaşdırmada olan göbələkləri istehlak etmək lazımdır. Az miqdarda da olsa, qidaya zəhərli göbələklər qatıldığında ölümcül nəticələrlə qarşılaşa bilərik".

Göbələklərin payızla birlikdə təbiətdə görünməyə başladığını qeyd edən Yılmaz xəbərdarlıq edib: "Hər göbələkdə müxtəlif zəhərlənmə əlamətləri olur. Bundan başqa, ürəkbulanma, qusma kimi zəhərlənmə əlamətləri müşahidə olunarsa, həkimə müraciət etməliyik. Təbiətdə yetişən təbii göbələklər payız və ya yaz aylarında yağışla birlikdə görünməyə başlayır. Onların tərkibində müxtəlif zəhərli maddələr var. Bu zəhərli maddələr nəticəsində qaraciyərin zədələnməsi və ya ölümcül nəticələr baş verir. Mümkün qədər uzaq durmaq lazımdır".

**Turan**

## Alim yeni tədqiqata imza atıb

Xərçənglə mübarizədə son hüceyrə deyil, ilk hüceyrə önəmlidir



**Dünyada hər il xərçənglə mübarizəyə milyardlarla pul xərclənir.**

Alimlər bu istiqamətdə fəaliyyətlərini hər keçən il daha da artırsalar da, dəqiq bir nəticə hasil olmur, xərçəngin tam müalicəsinə gətirib çıxaracaq üsullar tapılmır. Xərçəngin qarşısı müəyyən qədər, həm də müəyyən bir müddətə alınır, lakin bu xəstəlik yenə də irəliləyir və insan ölümlərinə səbəb olur. Bu günlərdə Kolumbiya Universitetinin professoru Azra Raza xərçəngin müalicəsində yeni elmi tədqiqata imza atıb. Alim tədqiqat nəticəsində müəyyən edib ki, xərçənglə mübarizədə son hüceyrə deyil, ilk hüceyrə önəmlidir. "Şərq" "NTV.com.tr"y istinadən xəbər verir ki, alim bu haqda NTV televiziyasına müsahibəsində danışıb. Azra Raza deyib ki, xərçənglə mübarizədə əsas hədəf son hüceyrəni öldürtmək deyil, ilk hüceyrəni tapıb onu məhv etmək olmalıdır. "Xərçəngə baxış bucağı dəyişməlidir. Son hüceyrəni məhv etmək nəticə etibarilə bizə bir şey qazandırmır. İlk hüceyrə sağ qaldığından, yenə, təkrar artır, çoxalır. Ona görə də əsas hədəf ilk hüceyrəyə, başlanğıc hüceyrəyə çatmaqdır. Əsas ilk hüceyrə gərək tapılsın və ocaqdaca məhv edilsin", söyləyən alim xərçəngin yaranmasına əngəl olan məhsulların daha çox yetişdirilməsinə çalışmağın vacib olduğunu da deyib.

**Məlahət**